

9

## “Formula 1” Azərbaycan iqtisadiyyatına necə təsir göstərir?

## “Bu gün Azərbaycan öz enerji təhlükəsizliyini 100 faiz təmin edir”




9

Bakıda Azərbaycan-Litva biznes forumu keçirilib



# Səs

№ 87 (6528) 19 may 2022-ci il. Qiymətı 60 qəpik

# Rusiya-Ukrayna müharibəsi: Qalib yox, uduzan kim?



6

*Rusiyanın Ukraynada başlatdığı müharibə artıq 3 aya yaxındır ki, davam edir. Rusiya ilk gündən bu müharibəyə zorən cəlb olunduğunu dedi və ardınca hədəflərinin yalnız hərbi obyektlər olacağını açıqlasa da bu vəd özünü doğrultmadı. Rusiya ordusu bütün cizgiləri aşdı, hədəflərin təxminən 49 faizi mülkü obyektlər, yaşayış binaları, vətəndaşlar oldu. Məhz bu vəhşi aksiya dünyanı Rusiyaya qarşı qoydu, dünya gücləri tərəfindən sanksiya paketləri üst-üstə gəldi, Moskva bütün beynəlxalq təşkilatlardakı mövqeyini ard-arda itirdi, ən əsası Rusiyanın Qərb ölkələri ilə bank hesablaşmaları donduruldu.*

## “İqtidar-müxalifət dialoqu və siyasi həmrəylik Azərbaycanın daha da qüdrətli dövlətə çevrilməsini şərtləndirir”



3

Ölkəmizdə siyasi dialoq prosesinin inkişafı və siyasi plüralizm ənənələrinin davam etdirilməsi məqsədilə Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev növbəti görüşünü mayın 18-də Müstəqil Xalq Partiyasının sədri Əflan İbrahimov ilə keçirib...

## Kənd adları - tariximizin güzgüsü

### *Onları dəyişərkən diqqətli olmalıyıq...*

8



## Erməni bloger alternativ Laçın yolunda nədən təəccübləndi?

**“Dedilər, elə hallar olub ki, ermənilərin maşını yolda xarab olub qalanda azərbaycanlılar gəlib kömək ediblər”.**



5

## Azərbaycan Ordusu Qaraliksənin həndəvərində!



14

Ermənistanın ”Hraparak” nəşri Azərbaycan Ordusunun fəaliyyəti ətrafında növbəti isterik məqalə ilə çıxış edib. Əsasən, ölkənin baş naziri Nikol Paşinyanın və onun hökumətinin fəaliyyətini hədəfə alan erməni nəşri iddia edir ki, Azərbaycanın Silahlı Qüvvələri Qarakilsə...

## “Onlar qarajdakı Ferrari kimidirlər"

*“Liverpul"un baş məşqçisi Yurgen Klopp İngiltərə Premyer Liqasının 37-ci turunda "Sauthempton"a qalib gəldikləri (2:1) matçı şərh edib. Alman mütəxəssis görüşdən sonra keçirilən mətbuat konfransında şans verdiyi əsas heyət üzvü olmayan futbolçuları haqda danışıb.*






## 1-ci sinfə qəbul qaydaları NECƏDİR?

16

*“Hazırda 1-ci sinfə qəbul prosesi başlayıb və valideynlərin diqqət etməli olduğu bəzi məqamlar var.*

# "Biz Cənubi Qafqazı sülh, əməkdaşlıq və qarşılıqlı fəaliyyət bölgəsi kimi görmək istəyirik"

*Prezident İlham Əliyev ölkəmizdə rəsmi səfərdə olan Litva Prezidenti Gitanas Nauseda ilə görüşüb*



***Dünən Azərbaycan Respublikasına rəsmi səfərə gələn Litva Respublikasının Prezidenti Gitanas Nausedanın rəsmi qarşılanma mərasimi olub. Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə görüşü olub.***

## İlham Əliyev: "Azərbaycan hər zaman öhdəliklərə sadiq olub, biz eyni məsuliyyəti Ermənistan tərəfindən də görməliyik



Litva Prezidentini salamlayan Azərbaycan Prezidenti İlham Əliyev əmin olduğunu bildirib ki, bu səfər ikitərəfli əlaqələrimizin inkişafına mühüm töhfə verəcək: "Biz əməkdaşlığımızın səviyyəsindən məmnunuq. Səfəriniz çərçivəsində bir sıra tədbirlər baş tutacaq ki, onların arasında biznes forum da var. İşgüzar dairələrimiz arasında praktiki fəaliyyətlə bağlı qarşılıqlı böyük maraq var.

Əlbəttə, siyasi əlaqələrimiz, siyasi dialoq və regional vəziyyət bu gün müzakirə edəcəyimiz məsələlər sırasındadır və mən həqiqətən də şadam ki, biz Bakıda görüşmək imkanı əldə etmişik. İki il bundan öncə bizim videokonfrans vasitəsilə görüşümüz oldu. Mən bu təşəbbüsə görə minnətdaram, bu, bizim ilk tanışlığımız idi. Bu gün isə Sizi qəbul etməyimdən məmnunam."

Litva Prezidenti Gitanas Nauseda çıxışında diqqətə çatdırıb ki, Litva hər zaman Qafqaz ölkələri ilə Avropa İttifaqı arasında daha sıx dialoqu dəstəkləyib: "Biz Şərq Tərəfdaşlığı layihəsini də güclü şəkildə dəstəkləyirik və bu məsələni də Sizinlə müzakirə etmək arzusundayıq.

İkitərəfli münasibətlərimiz və iqtisadi əlaqələrimiz əhəmiyyətlidir və şadam ki, məni işgüzar dairələri təmsil edən nümayəndə heyəti müşayiət edir. Onlar xüsusi tədbirdə iştirak edərək, mümkün iqtisadi əməkdaşlıq məsələlərini nəzərdən keçirəcəklər. Düzgün bilirəmsə, biz də orada açılış nitqi ilə çıxış edəcəyik.

Əlbəttə, mədəniyyət və təhsil sahələri də vacibdir. Bizim iki universitetimizin rektoru və digər universitetləri təmsil edən nümayəndələr də Azərbaycanda səfərdədirlər. Onlar müştərək proqramları müzakirə edəcəklər ki, bu sahədə də əlaqələr daha yüksək səviyyəyə qalxsın."

Daha sonra Prezident İlham Əliyevin Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə geniş tərkibdə görüşü olub.

Görüşdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, Avropa İttifaqı-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi yolları ilə bağlı qarşılıqlı anlaşma var: "Biz Avropa İttifaqı ilə sıx əlaqələrə dair Azərbaycanın planlarını dəstəklədiyinə görə Litvaya, onun hökumətinə, Prezidentinə minnətdarıq. Əlbəttə ki, bu yaxşı fürsətdən istifadə edərək ikitərəfli əlaqələri gücləndirməliyik. Həmçinin biz regional vəziyyəti, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesini geniş müzakirə etdik. Bilirəm ki, Azərbaycandan sonra Prezident Ermənistana səfər edəcək. Beləliklə, əminəm ki, bu səfər başa çatandan sonra onda tam təsəvvür formalaşacaq. Amma bizim mövqeyimiz çox açıqdır. Biz Ermənistanla sülh sazişi imzalamaq istəyirik. Biz münasibətləri normallaşdırmaq və düşmənçilik səhifəsini çevirmək istəyirik."

## Gitanas Nauseda "Azərbaycan Qafqaz regionunda Litvanın çox önəmli tərəfdaşıdır"

Litva Prezidenti Gitanas Nauseda:

"Təşəkkür edirəm, cənab Prezident. Siz bizim müzakirə etmək imkanımızın olduğu məsələləri artıq qeyd etdiniz. Onların arasında regionda təhlükəsizliklə bağlı vəziyyət və ümumilikdə bir çox sahələrdə əməkdaşlığımız və iqtisadi əməkdaşlıq xüsusilə mühüm əhəmiyyət kəsb edir. Məhz bu səbəbdən nazir müavinlərindən ibarət nümayəndə heyəti, iqtisadiyyat, nəqliyyat, təhsil, kənd təsərrüfatı nazirlərinin müavinləri mənimlə birlikdədirlər. Biz artıq çox ümidverici ola biləcək sahələri müzakirə etdik, xüsusilə ölkələrimiz arasında ticarət dövriyyəsinin artmasına nail olmağa çalışırıq. Mən artıq Azərbaycandan idxalın bir neçə dəfə artdığının şahidi oldum. Əfsuslar olsun ki, bizim ixracımızla bağlı vəziyyət bu cür deyil. İstənilən halda, şadıq ki, sizin işləriniz yaxşı gedir. Mən Litva üçün əhəmiyyəti getdikcə artan sahələrdə əməkdaşlıq üzrə böyük potensial görürəm."

Daha sonra Prezident İlham Əliyev və Litva Respublikasının Prezidenti Gitanas Nauseda mətbuata bəyanatlarla çıxış ediblər. Prezident İlham Əliyev bəyan edib ki, biz Cənubi Qafqazı sülh, əməkdaşlıq və qarşılıqlı fəaliyyət bölgəsi kimi görmək istəyirik: "Düşünürəm ki, İkinci Qarabağ müharibəsindən sonra bu əməkdaşlıq formatını yaratmaq üçün imkan var. Biz, həmçinin gürcüstanlı həmkarlarımız ilə bu barədə fikir mübadiləsi apardıq və onlar da bu seçimi çox müsbət qiymətləndirdilər. Lakin təəssüf ki, Ermənistan indiyə qədər Cənubi Qafqazda üçtərəfli qarşılıqlı fəaliyyət formatının ilkin olaraq başlanmasına həvəs göstərmir. Düşünürəm ki, imkanlar əldən verilməli deyil. Çünki indi Cənubi Qafqaz üçün sülhə, təhlükəsizliyə və sabitliyə sadiqlik nümayiş etdirməyin vaxtıdır. Postmünaqişə vəziyyətinə gəldikdə, bizdə müəyyən nikbinlik var. O fakta əsaslanaraq ki, Ermənistan rəsmi olaraq sülh müqaviləsi ilə bağlı Azərbaycan tərəfindən irəli sürülən beş əsas prinsipi qəbul etmişdir. Yeri gəlmişkən, İkinci Qarabağ müharibəsi qurtaran kimi Azərbaycan açıq şəkildə sülh müqaviləsinin bağlanmasını və sərhədlərin delimitasiyasına dair birgə komissiyanın yaradılmasını dəstəkləməyə başlamışdır. Bu, Ermənistan tərəfindən müsbət qarşılanmamışdır. Sonra biz mövqeyimizi, bu yaxşı məlum olan beş prinsipi dəqiqləşdirdik, hansı ki, bunlar beynəlxalq hüququn əsas prinsipləridir, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və yaxşı beynəlxalq təcrübə və davranışlara uyğundur. Ümid edirik ki, Ermənistan həmin prinsipləri qəbul etdiyini ehtiva edən ilkin mövqeyinə sadiq qalacaq və bu, sülh sazişi üçün əsas olacaq."

Litva Respublikasının Prezidenti Gitanas Nauseda bildirib ki, Azərbaycan Qafqaz regionunda Litvanın çox önəmli tərəfdaşıdır. Litva Avropa İttifaqı ilə Azərbaycan arasında daha fəal əməkdaşlığın tərəfdarıdır. Azərbaycan Avropa İttifaqının Şərq Tərəfdaşlığı platforması kontekstində çox önəmli ölkədir və strateji enerji tərəfdaşıdır. Biz Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş üzrə irəliləyişi dəstəkləməkdə davam edirik. Ukraynadakı müharibə öz enerji resursları mənbələrini şaxələndirmək üçün Avropaya bir xəbərdarlıq idi. Avropa İttifaqı öz enerji resursları mənbələrinin şaxələndirilməsini və özünün yanacaq məhsullarında Rusiyadan asılılığına son qoymaq istəyir. Avropa İttifaqında enerji ixrac edən alternativ ölkələrlə, o cümlədən təbii qaz sahəsində Azərbaycanla əməkdaşlığın gücləndirilməsinə böyük maraq var. Azərbaycan enerji sektorunda Avropa İttifaqının etibarlı tərəfdaşıdır.

# İki qardaş ölkənin münasibətləri ən yüksək zirvədədir!



***İki qardaş ölkə, Türkiyə və Azərbaycan arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyi günün reallığıdır və bu reallığı bu ölkələrlə yanaşı bütün dünya ölkələri də qəbul və etiraf etməkdədir. Eyni zamanda hər iki ölkə rəhbərinin dosluq və qardaşlıq münasibətləri də göz önündədir və bütün bunlar onu deməyə əsas verir ki, ölkələrimiz arasındakı münasibətlər bundan sonra daha da yaxşılaşacaq və bütün dünya ölkələrinə örnək, nümunə olmaqda davam edəcək.***

Əlbəttə ki, 14 may tarixində Türkiyədə Rize-Artvin Hava Limanının açılış mərasimində Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanla yanaşı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də iştirakı sözügedən dostluq münasibətlərini təsdiq edir, isbatlayır. Xatırladığımız kimi, bir qədər öncə, 44 günlük qələbəmizdən sonra işğaldan azad etdiyimiz ərazilərimizdə inşa edilmiş Füzuli Hava Limanının açılışında da Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə birgə iştirak etmiş. Sözsüz ki, bütün bunlar təsadüfi sayıla bilməz və sıradan bir addım da deyil, əksinə qardaşlığımız, dosluğumuz, münasibətlərimizin ən yüksək zirvədə olması barədə bütün dünyaya verilən mesajlardır.

Türkiyədə Rize-Artvin Hava Limanının açılış mərasimində hər iki ölkənin dövlət başçılarının birgə iştirakı, eləcə də ölkə rəhbərimizin çıxışı yerli sakinlər tərəfindən böyük coşqu ilə qarşılanıb ki, bu özü də birliyimizi, dostluğumuzu, qardaşlığımızı sübut edən məqam hesab olunur. Sübut olundu ki, dostluğumuz və qardaşlığımız, ümumiyyətlə, Türkiyə-Azərbaycan münasibətləri ən yüksək zirvədədir və hələ də bu münasibətlər yüksəlməkdə, inkişaf etməkdə durmadan davam edir.

Sözsüz ki, iki qardaş ölkə arasındakı bu qardaşlıq münasibətlərinin ən yüksək zirvəyə çatmasında hər iki ölkə rəhbərinin misilsiz xidmətləri və rolu vardır, hansıki bu, danılmazdır. Ölkə rəhbərlərimizin beynəlxalq platformalarda belə bir-birinə arxa, dahaq durması da sir deyil və bütün dünya ölkələrinin liderlərinin iştirak etdiyi bu platformalarda sərgilənən dosluq və qardaşlıq münasibətləri olub. Bu gün ölkələrimiz arasında olan bu təntənə davam etməkdədir. Azərbaycan hər bir işində, uğurunda öz yanında Türkiyəni, qardaş ölkə Türkiyə də Azərbaycanı görüb və göründüyü kimi bu ənənə davam etməkdədir. Yenə də həmişə olduğu kimi, istər Azərbaycanda, istərsə də Türkiyədə böyük llayihələr gerçəkləşdiriləndə hər iki ölkə rəhbəri yanaşı olurlar, birgə iştirak edirlər.

Nəzərə çatdırmaq yerinə düşərdi ki, ən çox diqqəti çəkən məqamlardan biri də məhz 44 günlük müharibənin ardınca qazandığımız qələbədən sonra işğaldan azad edilən torpaqlarımızda bərpa işlərində iştirak edən şirkətlər arasında Türkiyə şirkətləri daha çoxdur. Bütün bunlar təsdiq edir ki, Türkiyə bir qardaş ölkə olaraq işğaldan azad olunan ərazilərimizin bərpasında, çiçəklənməsində maraqlıdır və öz qardaş köməyini əsirgəmir. Eləcə də Azərbaycan Prezidentinin Türkiyədə Rize-Artvin Hava Limanının açılış mərasimində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla yanaşı iştirak etməsi də öz növbəsində bizim münasibətlərimizin hansı müstəvidə və hansı səviyyədə olduğunu göstərir.

İstər Azərbaycanda Füzuli Hava Limanının, istərsə də Türkiyədə Rize-Artvin Hava Limanının açılış mərasimində hər iki ölkə rəhbərinin birgə iştirakı əslində, bütövlükdə türk dünyası üçün olduqca əhəmiyyətlidir. Əlbəttə ki, bu addımlar, bu münasibətlər bütövlükdə türk dünyası ölkələri arasında əlaqələrin daha da möhkəmlənməsinə öz töhvəsini verməyə bilməz. Bu münasibətlər bir örnək olaraq qəbul edilir və bütövlükdə türk dünyası ölkələrinin bu münasibətlərdən bir nümunə götürəcəyinə şübhəmiz yoxdur.

Daha bir məqama diqqət etmək yerinə düşərdi ki, dünyada qardaş xalqlar təkcə biz deyilik, amma bu xalqlar arasındakı münasibətlər heç də bizimki kimi deyil və bu qürurvericidir. Çünki qardaşlıq münasibətlərini müttəfiqlik səviyyəsinə qaldırmaq asan məsələ deyil və buna məhz biz, Azərbaycan və Türkiyə birlikdə nail olub. Şuşa Bəyannaməsi də, Azərbaycanda Fizuli Hava Limanın, eləcə də Türkiyədə Rize-Artvin Hava Limanının açılış mərasimində ölkə rəhbərlərimizin iştirakı da bu müttəfiqliyi bir daha dünya ölkələrinə nümunə olaraq göstərib, nümayiş etdirib və hər kəs artıq bunun fərqindədir. Bu müttəfiqlik isə, təbii ki, özlərini bizə dost hesab edən ölkələri sevindirir, düşmən hesab edən ölkələri isəməyus edir, çünki bu müttəfiqliyin əbədi və sarsılmaz olduğu öz təsdiqini artıq dəfələrlə tapıb. Onu da vurğulamaq lazımdır ki, ölkələrimiz arasında bu münasibətlərin, bu müttəfiqliyin fonunda istər Azərbaycanin, istərsə də Türkiyənin dövlət başçıları milli maraqlara xidmət edən siyasət yürüdürlər. Bu siyasət isə təbii ki, hər iki dövvlətin inkişafına, tərəqqisinə, dünya dövlətləri arasında söz sahibi olmasına, nüfuzuna öz tövhəsini verməkdədir. İndi bütün dünya dövlətləri yaxşı bilirlər ki, Türkiyə və Azərbaycan hər zaman bir-birinin yanındadır və bir-birinin maraqlarını müdafiə etməyə hazırdır. Bu, hər iki ölkənin birliyi ilə yanaşı, onların bütün dünyada gücünün, qüdrətinin olması deməkdir.

Bütün dünya ölkələri 44 günlük müharibə zamanında da, müharibədən əvvəl də, sonra da Türkiyənin Azərbaycana necə mənəvi, siyasi dəstək verdiyinin şahidi oldular. Gördülər ki, bu qardaş ölkə Azərbaycanı müdafiə edir və bundan sonra da edəcək, hər zamankı kimi mənəvi və siyasi dəstəyini əsirgəməyəcək. "Azərbaycanın sevinci sevincimiz, kədəri isə kədərimizdir", deyən Atatürkün, eləcə də, "Biz bir millət, iki dövlətik", deyən Ulu Öndər Heydər Əliyevin bizim üçün miras qoyduğu yolu hər ölkə rəhbəri uğurla davam etdirir, bu ənənəyə sadiqlik nümayiş etdirir. Məhz bunun sayəsində, bu ənənənin davam etdirilməsi, dosluğumuzun daha da möhkəmləndirilməsi sayısində indi artıq Türkiyə-Azərbaycan münasibətləri ən yüksək zirvədədir.

***İnam Hacıyev***

## "İqtidar-müxalifət dialoqu və siyasi həmrəylik Azərbaycanın daha da qüdrətli dövlətə çevrilməsini şərtləndirir"



Ölkəmizdə siyasi dialoq prosesinin inkişafı və siyasi plüralizm ənənələrinin davam etdirilməsi məqsədilə Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev növbəti görüşünü mayın 18-də Müstəqil Xalq Partiyasının sədri Əflan İbrahimov ilə keçirib.

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər ölkəmizdə fəaliyyət göstərən müxtəlif siyasi partiyalara dövlət tərəfindən göstərilən dəstək tədbirləri, sağlam siyasi münasibətlərin qurulması və cəmiyyətdə siyasi partiyaların rolunun aktuallaşdırılması istiqamətində qısa müddət ərzində çox böyük işlərin görülməsi, ölkəmizdə çoxpartiyalı siyasi sistemin inkişafı üçün münbit şəraitin yaradılması, partiyaların dövlət qeydiyyatının maneəsiz aparılması və digər bu kimi mütərəqqi işlər haqqında söhbət aparıblar.

Şöbə müdiri Ədalət Vəliyev Prezident İlham Əliyevin çoxşaxəli islahatlarının bütün müstəviləri əhatə etdiyini, siyasi partiyaların fəaliyyətinin dəstəklənməsi ilə bağlı atılan bütün addımların yalnız və yalnız siyasi dialoqun dərinləşməsi, sağlam münasibətlərin bərqərar olmasına yönəldiyini qeyd edib. Ümumilikdə partiyalara və siyasi sistemin digər iştirakçılarına göstərilən dəstək institusional, qanunverici, təşkilati və digər məsələləri əhatə edir. Prezident İlham Əliyevin elan etdiyi yeni siyasi konfiqurasiya ölkəmizin siyasi inkişafına, xalqımızın milli birliyinə böyük töhfə verməkdədir. Ölkədə aparılan iqtidar-müxalifət dialoqu, siyasi həmrəylik, milli dövlətçilik ideyaların inkişafı Azərbaycanın daha da qüdrətli dövlətə çevrilməsini şərtləndirir.

2020-ci ildə dövlət qeydiyyatına alınmış Müstəqil Xalq Partiyasının sədri Əflan İbrahimov, ilk növbədə, belə bir görüşün keçirilməsini yüksək dəyərləndirib və ölkəmizdə üzvlərinin sayından və siyasi proseslərdə təcrübəsindən asılı olmayaraq, hər bir partiyaya bərabər münasibətin göstərilməsindən məmnunluğunu ifadə edib. Əflan İbrahimov sədri olduğu partiyanın Azərbaycan dövlətçiliyi, ölkənin milli maraqları müzakirə mövzusu olan zaman dövlətin və dövlətçiliyin yanında dayandığını bildirib, 30 il işğal altında qalan torpaqlarımızın Prezident İlham Əliyevin qətiyyətli sərkərdəliyi ilə hərbi yolla azad edilməsinin, xalqın mənəvi qürurunun bərpa olunmasının Azərbaycan dövlətçiliyi tarixində yeni mərhələnin başlanmasına səbəb olduğunu vurğulayıb. Bildirib ki, bu uğurlu fəaliyyətin davamlılığı və ölkəmizin dünya miqyasında mövqeyinin daha da möhkəmlənməsi üçün dövlətin milli maraqlarının müdafiəsi hər bir siyasi prosesin fövqündədir, siyasi baxışından asılı olmayaraq, ölkənin hər bir tərəqqipərvər insanı bu işdə dövlətin yanında olmalıdır. Sonda Müstəqil Xalq Partiyasının gələcək fəaliyyəti, ölkə ərazisində partiyanın yerli təşkilatlarının formalaşdırılması və partiyanın ölkədə baş verən siyasi proseslərdə fəal iştirakı üçün münbit siyasi şəraitin mövcudluğu haqqında fikir mübadiləsi aparılıb və Əflan İbrahimov görüşə görə təşəkkürünü bildirib.

## Britaniya saytında Azərbaycan Prezidentinin Kraliça II Elizabetə Qarabağ atı hədiyyə etməsi ilə bağlı yazı yerləşdirilib

Böyük Britaniyanın "Hello" saytında Azərbaycan Prezidenti İlham Əliyevin Kraliça II Elizabetə Qarabağ atı hədiyyə etməsi ilə bağlı yazı yerləşdirilib. AZƏRTAC xəbər verir ki, məqalədə Kraliçanın hər zaman xüsusi hədiyyələr aldığı, lakin bu dəfə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən xüsusi bir hədiyyə təqdim olunduğu qeyd olunub.

Yazıda, 96 yaşlı kraliçanın Vindzor qəsrində Azərbaycan Atçılıq Federasiyasının prezidenti Elçin Quliyevin başçılıq etdiyi nümayəndə heyətini qarşılayaraq onlara təşəkkür etməsi şəkillərlə birgə paylaşılıb. Məqalədə azərbaycanlı heykəltəraş Faiq Hacıyevin hazırladığı iki nəfis at heykəli haqqında da məlumat verilib. Azərbaycan nümayəndə heyətinin 2012-ci ildən bəri Kral Vindzor At Şousunda iştirak etdiyi və bu il keçirilən Kraliçanın Platin Yubileyində Odlar Yurdu adlı şou-kompozisiya ilə çıxış etdikləri məqalədə qeyd olunub.



# “Bu gün Azərbaycan öz enerji təhlükəsizliyini 100 faiz təmin edir”

## *Bakıda Azərbaycan-Litva biznes forumu keçirilib*




***Dünən Bakıda Heydər Əliyev Mərkəzində Azərbaycan-Litva biznes forumu keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Litva Respublikasının Prezidenti Gitanas Nauseda biznes forumun açılışında iştirak ediblər. Dövlət başçıları biznes forumda çıxış ediblər.***

Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, ölkələrimiz arasındakı güclü siyasi münasibətləri nəzərə alaraq, uzun illərdir ki, biz artıq strateji tərəfdaşlarıq və Prezidentin hazırkı səfəri fəal siyasi dialoqun olduğunu bir daha nümayiş etdirir: ”Düşünürəm ki, Azərbaycanda biznes mühiti investorlar üçün əlverişlidir. Biz 10 milyardlarla birbaşa xarici investisiyadan məmnunuq. Xarici şirkətlərin sərmayə portfelinin şaxələndirilməsi də çox vacibdir. İnvestisiya proqramlarımızın ilkin vaxtlarında əsasən neft-qaz sektoruna investisiya qoyulurdusa, indi biz bərpaolunan enerji sahəsində birbaşa xarici investisiyaları görürük. Bu ilin əvvəlində xarici investorlar ilə 470 meqavat gücündə günəş və külək elektrik stansiyaları tikmək üçün iki böyük müqavilə imzalanmışdır ki, bu da əlverişli investisiya mühitinin olmasının göstəricisidir.

Ümumilikdə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi bizim əsas prioritetdir. Təbii ki, ənənəvi olaraq enerji sektoru bizim iqtisadiyyatda aparıcı sektor olub və bu, davam edəcəkdir. Xüsusilə biz indi Azərbaycan qazını ilk dəfə 2021-ci ilin yanvarından başlayaraq Avropa İttifaqı da daxil olmaqla müxtəlif məntəqələrə nəql edən Cənub Qaz Dəhlizinin tikintisini, 3500 kilometr uzunluğunda birləşdirilmiş çoxsaylı boru kəməri sistemini yekunlaşdırmışıq. Əlbəttə ki, bizim iqtisadiyyatın ənənəvi sahəsi olan neft sektorunun inkişaf etdirilməsi yerli məqsədlər və bir çox ölkələrin enerji təhlükəsizliyi üçün vacib rol oynamaqda davam edir. Bununla belə, şaxələndirmə bizim əsas hədəfdir. Çünki biz başa düşürük ki, şaxələndirmə olmadan davamlı iqtisadiyyat yaratmaq üçün bizim planlar yerinə yetirilməyəcəkdir. Biz bu xüsusda yaxşı nəticələr görürük. Sizə deyə bilərəm ki, bu ilin dörd ayının nəticələri ümumi olaraq perspektivlidir. Bizim iqtisadiyyat 7,2 faiz artmışdır. Pandemiyadan sonrakı dövrü düşünsək, bu, çox yaxşı rəqəmdir. Qeyri-neft sektoru ilə bağlı daha yaxşı rəqəmlər vardır, hansı ki, burada artım 11,4 faizdir. Bizim çox az xarici borcumuz vardır - ümumi daxili məhsulun yalnız 12,5 faizi həcmində. Hədəf onu ümumi daxili məhsulun 10 faizi həcminə qədər azaltmaqdır.

Bizim ixrac potensialımız artır, həm beynəlxalq bazarlara qaz ixracının artmasına, həm də qeyri-enerji sahəsində islahatlara görə. Bu il ixrac 85 faiz artıb, qeyri-neft ixracı isə 40 faizə yaxın artıb. Mən düşünürəm ki, bu, ölkənin dayanıqlı inkişafını göstərir. Çünki enerji potensialı təbii sərvətlərimizə əsaslanır və Azərbaycan xalqının, dost və qonşularımızın rifahına xidmət edir. Eyni zamanda, qeyri-enerji sahəsində artım da iqtisadiyyatımızda islahat aparmaq üçün hökumətimizin istəyini və bacarığını nümayiş etdirir. Azərbaycandakı müsbət demoqrafik vəziyyəti nəzərə alaraq, biz daim işsizliklə bağlı məsələlərə diqqət yetirməliyik. Biz işsizlik səviyyəsini 5-6 faizə qədər azaltmağa nail olmuşuq. Lakin bunu aşağı səviyyədə saxlamaq üçün biz hər il yeni iş yerləri açmalıyıq. Çünki Azərbaycanın əhalisinin sayı, 30 il əvvəl müstəqilliyimiz əldə olunandan bu günə qədər 7 milyondan 10 milyona qədər artmışdır və indi də artmaqdadır. Bu səbəbdən biz daha çox insan üçün iş yerlərinə sahib olmalıyıq. İqtisadi davamlılığa gəldikdə isə Azərbaycan artıq xarici yardımı və ya beynəlxalq kreditləri alan ölkə deyil. Bəli, biz kreditləri götürürük, lakin onları yalnız yüksək texnoloji layihələrə cəlb edirik. Eyni zamanda, biz donora çevrilmişik. Biz özümüz kredit ayırırıq. Ehtiyatlarımız isə xarici borcumuzu bir neçə ay ərzində sıfıra endirə bilər. Bu, yaxşı iqtisadi vəziyyətdən xəbər verir və gələcək islahatlarımızı lazımınca planlaşdırmağa imkan yaradır.



Azərbaycanda ümumi iqtisadi artımdan danışarkən, biz enerji təhlükəsizliyi məsələsinə toxunmalıyıq. Bu gün Azərbaycan öz enerji təhlükəsizliyini 100 faiz təmin edir və bir çox digər ölkələrin, o cümlədən Avropa İttifaqının üzvlərinin də enerji təhlükəsizliyini təmin edir. Biz neft, qaz, elektrik enerjisi, neft-kimya məhsulları ixrac edirik. Bizim planlarımıza qazın, elektrik enerjisinin və neft-kimya məhsullarının ixracını böyük həcmdə artırmaq daxildir. Neft ixracına gəldikdə, ixracın bugünkü profili bizi və istehlakçıları qane edir. Eyni zamanda, bugünkü geosiyasi vəziyyəti nəzərə alsaq, aydın olur ki, Azərbaycanın enerji resurslarına ehtiyac heç vaxt olmadığı qədər böyük olacaq. Bu il biz artıq Azərbaycanla Avropa İttifaqı arasında enerji dialoquna başlamışıq. O, bir çox sahələri - neft, qaz, elektrik enerjisi, hidrogen və bərpaolunan enerji mənbələrini əhatə edir.

Bizim aramızda tam anlaşma var və biz böyük həvəslə çalışırıq, çünki bu halda hər bir tərəf udur. Azərbaycana etibarlı və uzunmüddətli bazarlar, ədalətli nizamlama və qanunvericilik olan bazarlar lazımdır. Bu isə Avropa bazarıdır. Avropa istehlakçılarına isə əlavə enerji resursları mənbələri lazımdır. Bu baxımdan, əlbəttə ki, Azərbaycan Avropa İttifaqı tərəfindən töhfə verən tərəf kimi qəbul edilir. Bərpaolunan enerjinin 2030-cu ilə qədər ümumi balansımızda ən azı 30 faiz olması planlarımızı nəzərə alaraq, hesab edirəm ki, həmin planlara dəyişiklik edilə bilər. Fikrimcə, biz hətta enerji balansımızda 30 və ya 40 faiz bərpaolunan enerjini nəzərdə tuta bilərik. Onda, əlbəttə ki, Avropa istehlakçıları üçün bərpaolunan enerji mənbələri hesabına istehsal edilmiş enerji daha çox cəlbedici ola bilər. Biz bunun üzərində işləyirik. Bu baxımdan, biz düzgün yoldayıq.

Avropa İttifaqı ilə aparılan əməkdaşlığımız haqqında bir neçə söz deyim. Avropa İttifaqı bizim əsas ticari tərəfdaşımızdır və bu, belə də davam edəcək. Biz yeni sazişlə bağlı Avropa İttifaqı ilə aparılan danışıqların son mərhələsindəyik. Əlbəttə ki, Avropa İttifaqının üzvləri, xüsusən də Litva ilə əməkdaşlıq bizim üçün strateji əhəmiyyət kəsb edir. Şadam ki, bu əməkdaşlıq çox uğurla inkişaf edir.”

Prezident Gitanas Nauseda çıxışında qeyd edib ki, iqtisadi əməkdaşlıq üçün istifadə olunmamış geniş imkanlarımız var: ”Görürəm ki, Azərbaycanın qlobal iqtisadiyyatda oynadığı rolu daha da artacaq və əslində, ölkə artıq çoxsaylı nailiyyətlərə imza atıb. Ukraynadakı müharibə qlobal ticarəti yenidən nizamlayır. Asiya ilə Avropanın kəsişdiyi məkanda yerləşən Azərbaycan qlobal ticarətdə ən mühüm rollardan birini oynayır və oynayacaqdır. Yaşıl iqtisadiyyat və innovasiyalarla bağlı məqsədlər sizin gələcək iqtisadi perspektivlərinizi və gücünüzü şərtləndirən əsas meyarlardır.

Mənim ölkəmin - Litvanın çox saylı təklifləri var. Litvada geniş maliyyə və vergi imtiyazlarına malik yeddi azad iqtisadi zona var. Rəqəmsal infrastrukturumuz sürətlidir və münasib tariflərə əsaslanır. O, Avropa İttifaqında ən yaxşılar sırasındadır. Lazımi şəkildə inkişaf etmiş şose və dəmir yolu xətləri, hava və dəniz nəqliyyatı ölkəmin digər üstünlüklərini təşkil edir.

Sizin xüsusi diqqətinizi Litvanın Klaypeda dəniz limanına cəlb etmək istərdim. Həmin zonada dəniz buz bağlamır və o, Baltik dövlətləri arasında ən böyük limandır. Bütün il ərzində, Litva strateji baxımdan güclü, şaxələndirilmiş istehsal sektorunun qurulmasına diqqət yetirirdi. İndi isə ölkəmiz innovativ və yüksək texnoloji sektorlar üzərində çalışır. Güclü istehsal sabit enerji mənbələrini tələb edir. Son on il ərzində biz artıq böyük elektrik istehsalı işlərini icra etmişik, qaz və maye qaz terminalının tikintisi layihələrini həyata keçirmişik. Həmin terminalın inşası 2014-cü ildə başa çatdırılmışdır. Hazırda enerji sektorumuz günəş və külək enerji parklarından ibarətdir. Biz bu yaxınlarda Baltik dənizində ilk dəfə olaraq külək enerji parkını yaradacağıq.”

Sonra Azərbaycan-Litva sənədlərinin imzalanması mərasimi olub.

# Erməni bloger alternativ Laçın yolunda nədən təəccübləndi?









### "Azərbaycanlılar ermənilərin arasında Laçın dəhlizinə alternativ yolu belə çəkirlər"

"Dedilər, elə hallar olub ki, ermənilərin maşını yolda xarab olub qalanda azərbaycanlılar gəlib kömək ediblər". Bu sözləri erməni bloger David Simonyana Laçında qalan erməni kəndliləri deyiblər. SİA xəbər verir ki, adıçəkilən bloger məhz Laçında alternativ yolun çəkilişini izləmək üçün erməni sakinlərinin yaşadıqları ərazilərdə çəkilişlər aparıb.

Simonyan öz çəkilişində qeyd edib ki, artıq Azərbaycanın rəsmi qurumlarının da təsdiqlədiyi kimi, 10 noyabr 2020-ci il razılaşmasına əsasən növbəti 3 il ərzində tərəflərin razılığı əsasında Yuxarı Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizinə alternativ olaraq yeni hərəkət marşrutunun inşasına artıq başlanılıb. Məlumata görə, alternativ yol Ermənistanın Qərbi Zəngəzurdakı Sünik rayonunun Gorunzur kəndindən başlayacaq, Laçın rayonunun Zabux kəndi yaxınlığındakı Qayğı qəsəbəsindən, Şuşa rayonunun Aşağı və Yuxarı Qaladərəsi kəndlərindən keçərək dağların arasından Xankəndinə çatacaq.

Onu da bildirək ki, bloger Rusiyanın "Kavkazskiy uzel" saytının əməkdaşıdır və ərazilərin adlarını erməni "toponimləri" ilə səsləndirir. Məhz bu baxımdan, qərara alındı ki, həmin ərazilər məhz Azərbaycanın qədim toponimləri ilə adlandırılsın.

### "Ermənistanı Qarabağla birləşdirəcək yeni yolun genişmiqyaslı tikintisi gedir. Azərbaycanlılar tikir. Deyirlər ki, bizim üçün, Qarabağ erməniləri üçün tikirlər"

O da əbəs deyil ki, bu yerlərdə aparılan işlərlə bağlı erməni mediası da bir neçə dəfə çəkilişlər aparıb və haqqında bəhs edilən yolun Azərbaycan inşaat şirkətləri tərəfindən tikintisi ilə bağlı reportajlar hazırlamağa başlayıblar.

"Oraya yola düşdüm, dedilər ki, həmin yerdə Ermənistanı Qarabağla birləşdirəcək yeni yolun genişmiqyaslı tikintisi gedir. Azərbaycanlılar tikir. Deyirlər ki, bizim üçün, Qarabağ erməniləri üçün tikirlər", deyə reportajda bildirilir.

Qeyd edilir ki, çəkilən yeni yol Böyük Qaladərəsi və Kiçik Qaladərəsi kəndlərinin yanından keçir. Şuşadan gələn magistral yol ilə ermənilərin "Tasi Verst", yəni On Verst kəndini keçib sola dönür və meşə yolu ilə dağlara doğru getməkdə davam edilir. "Yolda Kiçik Qaladərəsinə çatmamış erməni kəndliləri gördüm, onlar su borularını qazıb çıxarırlar", deyə bloger bildirib.

### "Azərbaycanlı inşaatçılar ermənilərin keçməsi üçün heç bir xüsusi maneə törətmirlər"

"Ağır texnika ilə yol genişləndirilir, onsuz da borular xarab ediləcək, ona görə də qazılıb çıxarılır. Meşə də yolun eni boyu qırıldığı üçün kənd camaatı məhv olmuş ağacları odun üçün kəsir ki, heyif olmasın", deyə reportaj əsnasında qeyd olunur.

**David Simonyan kəndlilərdən soruşur: "Azərbaycan işçiləri ilə ünsiyyət saxlayırsınız?"**

**Cavab belədir: "Çox deyil, amma bir-birimizlə salamlaşırıq..."**

**- Aranızda problem olubmu?**

**- Hələ ki, yox..."**

Erməni kəndliləri əlavə ediblər: "Məcburi barışmanın mahiyyəti ondan ibarətdir ki, Böyük Qaladərəsi və Kiçik Qaladərəsi kəndlərinin sakinləri hər gün bu yoldan keçirlər və yol inşaatçılar tərəfindən texnikalarla bağlanır. Ya çox uzun müddət gözləməlisən, ya da azərbaycanlılara yaxınlaşıb hərəkət etmək üçün bir dəqiqəlik yolu açmağı xahiş etməlisən. Ədalət naminə demək lazımdır ki, azərbaycanlı inşaatçılar ermənilərin keçməsi üçün heç bir xüsusi maneə törətmirlər. Hətta ermənilərin maşını yolda xarab olub qalanda azərbaycanlılar gəlib kömək ediblər".

### "Siqnal verib təşəkkür etdim, hər şey adi insanlar arasında olduğu kimi, mədəni idi"

Bloger əlavə edib ki, irəlidə yolu qazma maşını bağladı və o, bu işləri dəfələrlə görüb: "Onları dəfələrlə görmüşəm: qayada dərin çuxur açırlar, oraya partlayıcı qoyub dağı uçururlar. Daha sonra texnika dağıdılmış daşları götürür və yol genişləndirilir. Məni başqa şey təəccübləndirdi, azərbaycanlılar mühafizəsiz işləyirdilər Amma aydın oldu ki, onların mühafizəsi var, dağın başında Azərbaycan postu qurulub, görünür, orada yola nəzarət edən kameralar da var. Yarım saat gözlədik, işlərini qurtardılar və yolumuzu açdılar. Yolda onların ağır texnikası çox işləyirdi, ekskavatorlar yoldan daşları çıxarırdı, işçilər də yaxınlıqda idi. Biz yaxınlaşanda yan tərəfə çəkilib yolumuzu açdılar Siqnal verib təşəkkür etdim, hər şey adi insanlar arasında olduğu kimi, mədəni idi. Baxmayaraq ki, mən Qarabağda bir erməni və azərbaycanlının bu qədər yaxın dayandığını uzun illərdir ilk dəfə görürdüm. Müharibə etməkdənsə, yol çəkmək daha yaxşıdır..."

*(Ardı var)*

***Rövşən RƏSULOV***

## REPORTAJ+FOTOLAR






*Rusiyanın Ukraynada başlatdığı müharibə artıq 3 aya yaxındır ki, davam edir. Rusiya ilk gündən bu müharibəyə zorən cəlb olunduöunu dedi və ardınca hədəflərinin yalnız hərbi obyektlər olacağını açıqlasa da bu vəd özünü doğrultmadı. Rusiya ordusu bütün cizgiləri aşdı, hədəflərin təxminən 49 faizi mülkü obyektlər, yaşayış binaları, vətəndaşlar oldu. Məhz bu vəhşi aksiya dünyanı Rusiyaya qarşı qoydu, dünya gücləri tərəfindən sanksiya paketləri üst-üstə gəldi, Moskva bütün beynəlxalq təşkilatlardakı mövqeyini ard-arda itirdi, ən əsası Rusiyanın Qərb ölkələri ilə bank hesablaşmaları donduruldu.*

# Rusiya-Ukrayna müharibəsi: Qalib yox, uduzan kim?

Rusiyanın maliyyə sistemi çökdü, xüsusən də iri şirkətlər bu ölkənin ərazisini tərk etmək məcburiyyətində qaldı, növbədə neft və qaz satışına qoyulan qadağalar vardı. Və bu sektora tətbiq olunan yarımsanksiyalar belə Rusiya iqtisadiyyatına köklü zərbə vurub və vurmaqda hələ də davam edir.

Rusiyaya qarşı iqtisadi sanksiyaların sayı artmaqda davam edir. Statistik göstəriciləri və ekspert rəylərini nəzərdən keçirsək görərik ki, 2019-cu ilin məlumatlarına görə, Rusiyanın ixracında ilk yerləri neft, təbii qaz və onlardan alınan məhsullar tuturdu. 407 milyard dollarlıq ixrac həcminin 59 faizindən çoxunu neft məhsulları təşkil edirdi, digər əsas kateqoriyalar arasında minerallar və qiymətli metallar da var. 2019-cu ildə Rusiyanın ixracının 38 faizi Avropa ölkələrinin payına düşüb. Hələ ki, Rusiyanın enerji ixracatına sanksiyalar tam olaraq tətbiq edilməyib və müharibə başladıqdan sonra artan neft qiymətləri bu ölkənin gəlirlərinin artmasına səbəb olub. Ancaq belə vəziyyət uzun sürməyə bilər.

Rusiya qazı və neftinin ən böyük müştərilərindən olan Avropa Birliyinin enerji təhlükəsizliyinə görə fərqli mənbələrə üz tutması yaxın illərdə onun ixrac bazarını daralda bilər. Beynəlxalq Enerji Agentliyinin (BEA) martın 3-də açıqladığı hesabata görə, Avropa İttifaqı bir il ərzində atacağı 10 addımla Rusiyadan idxal etdiyi qazın həcmini 30 faiz azalda bilər. Artıq heç kim xəyal qurmur. Təbii qaz ehtiyatlarından Rusiyanın iqtisadi və siyasi silah kimi istifadə etməsi onu göstərir ki, gələn qış qaz tədarükündə qeyri-müəyyənliklə üzləşməmək üçün bu il Avropa sürətlə hərəkətə keçməlidir. Bu plan Rusiya qazından asılılığı azaltmaqla yanaşı, ekoloji baxımdan təmiz enerjiyə təhlükəsiz və ucuz keçidi də təmin edər.

Bəs bu addımları atmaq üçün Avropa, xüsusən də Rusiyanın enerji daşıyıcılarından asılı olan ölkələr nə etməlidir? Ekspertlərin qaza qənaətlə bağlı tövsiyələri belədir. Rusiya ilə yeni qaz alışı müqavilələsinin imzalanmaması, təbii qazın mümkün qədər başqa ölkələrdən alınması (30 milyard kubmetr), külək və günəş enerjisi ilə bağlı yeni layihələrin sürətləndirilməsi (6 milyard kubmetr), mövcud nüvə və bioenerji elektrik stansiyalarının tam gücüylə işləməsi (13 milyard kubmetr), istehlakçılardan termostatlarındakı temperaturu bir dərəcə azaltmağı xahiş etmək (10 milyard kubmetr).




İdxalda ilk növbədə məhdudlaşdırılacaq məhsullar isə Rusiyaya qarşı sanksiyaların təsirini qısa müddətdə daha çox hiss etdirə biləcək kateqoriyalara aiddir. Rusiyanın illik həcmi 238 milyard dollar təşkil edən idxalında birinci yeri texnologiya məhsulları tutur. Kompüterlər, ofis avadanlıqları, sənaye istehsalı üçün lazım olan maşınlar, rabitə vasitələri və digər elektron avadanlıqlar Rusiya iqtisadiyyatının xaricdən təmin edilən əsas ehtiyaclarıdır. Bir çox şirkət bu kateqoriyalar üzrə Rusiyaya qarşı sanksiyalar tətbiq etməyə başlayıb. "Intel", AMD, "Nvidia" və "Apple" kimi çip və kompüter istehsalçıları Rusiyaya məhsul göndərməyi dayandırıblar.

ABŞ Prezidenti Co Bayden sanksiyalarla bağlı qərarı açıqlayarkən dediyi fikirlər çox maraqlıdır: "Bunun Rusiya iqtisadiyyatına uzunmüddətli təsir göstərəcəyi qaçılmazdır. Rusiya iqtisadiyyatının strateji sektorlarına lazım olan texnologiyanın idxalını məhdudlaşdırmaqla bu ölkənin sənaye imkanlarını məhdudlaşdıracağıq".

Aviasiya sənayesinin ən böyük aktorları "Boeing" və "Airbus", avtomobil sənayesində isə "Volkswagen" qrupunun da daxil olduğu bir çox böyük şirkət Rusiyaya ixracı dayandırıblar. "Fortune" jurnalının yazdığına görə, Rusiya aviaşirkətlərindəki təyyarələr arasında Qərb şirkətlərindən icarəyə götürülmüş olanlar da var. Onların başqa ölkələrdə ələ keçirilə biləcəyini əsas gətirən Rusiya Federal Aviasiya Agentliyi belə təyyarələri olan şirkətlərə başqa ölkələrə uçuşları dayandırmağı tövsiyə edib. "Boeing" və "Airbus"-dan ehtiyat hissələri və xidmətlər ala bilməmək də Rusiya şirkətlərinə ciddi təsir etməkdədir. "Aeroflot" şirkətinin donanması, demək olar ki, tamamilə bu iki şirkətin təyyarələrindən ibarətdir.

Avtomobil sənayesi barədə xəbərlər yayımlayan "CarNewsChina.com" saytının məlumatına görə, Rusiya bankları SWIFT sistemindən kənarda qalsa da, həm Çinin, həm də Rusiyanın öz ödəniş sistemlərini qurması bu iki ölkəyə yerli valyutalarla alver etmək imkanı yaradır. Bəzi Rusiya banklarının SWIFT sistemindən çıxarılması, o cümlədən, "MasterCard" və "Visa" ödəniş şirkətlərinin Rusiyaya qarşı sanksiya tətbiq etməsi dolayı yolla qida, tibb və turizm sektorlarına da təsir etməkdıdir.

Rusiya Mərkəzi Bankının saytındakı məlumata görə, bu ölkə son 15 ildə 554 milyard dollar investisiya cəlb edib. Rusiyanın Qərblə münasibətindən asılı olaraq illər ərzində investisiyaların həcmi dəyişib. Məsələn, 2014-cü ildə Rusiya Krımı ilhaq etdiyi üçün 2015-ci il bu ölkənin ən az investisiya cəlb etdiyi illərdən biri olub. Bu ilə aid məbləğin 50 milyardı Britaniyadan, 60 milyardı Hollandiyadan, 24 milyardı Almaniyadan, 20 milyardı isə Fransadan daxil olub.

Bu gün bu ölkələr Rusiyaya qarşı sanksiyaların tətbiq edilməsi siyasətinə liderlik edirlər. Son 11 ildə xaricilərin Rusiyaya ən çox sərmayə qoyduğu (93 milyard dollar) sektorlar mədənçıxarma və neft hasilatı olub. Qeyd edək ki, iqtisadiyyatının təbii qaz və neftdən asılılığını azaltmaq istəyən Rusiya üçün birbaşa xarici investisiyalar böyük əhəmiyyət kəsb edir.

ABŞ-ın "Atlantic Council" analitik mərkəzinin məlumatına görə, Krımın 2014-cü ildəki ilhaqından sonra tətbiq edilən sanksiyalar Rusiyanın iqtisadi artımını hər il 2,5-3 faiz azaldıb. Ona görə də 2014-cü ildən sonra qlobal iqtisadiyyat ildə orta hesabla 2,3 faiz böyüdüyü halda, Rusiya iqtisadiyyatı 0,3 faiz inkişaf edə bilib. Ukraynaya hücumdan sonra tətbiq edilən yeni və əhatəli sanksiyaların Rusiya iqtisadiyyatını daha da kiçildəcəyi gözlənir.

Avropa İttifaqı xarici işlər nazirləri ciddi fikir ayrılıqları səbəbindən Rusiyaya qarşı neft embarqosu məsələsində yekdil rəyə gəlmək hələlik mümkün olmayıb. Amma bu o demək deyil ki, Rusiyaya qarşı embarqo tətbiqi baş tutmayacaq. Aİ-nin Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Cozep Borrell də bu fikirdədir. "Əlbəttə, biz bunu (neft embarqosu - müəllif) müzakirə edəcəyik və vəziyyəti blokdan çıxarmağa çalışacağıq, lakin mən buna zəmanət verə bilmərəm, çünki müxalifət çox güclüdür", deyə cavab verib.

Bloomberg hökumətdəki mənbələrə istinadən xəbər verir ki, Avropa İttifaqı sanksiyaların növbəti mərhələsi çərçivəsində ümumavropa embarqosu ilə bağlı razılığa gələ bilməsə belə, Almaniya ilin sonuna qədər Rusiya neftinin idxalını dayandırmağı planlaşdırır. Kansler Olaf Şolz administrasiyası artıq alternativ təchizatçılar axtarır və əmindir ki, qalan logistika problemləri yaxın altı-yeddi ay ərzində həll edə biləcək. Almaniya hökuməti Aİ-nin anti-Rusiya sanksiyaları çərçivəsində öz milli planını təbliğ etmək niyyətindədir. Lakin kəsiri hansı ölkələrin ödəyəcəyini dəqiqləşdirməyiblər.

Bloomberg qeyd edir ki, Şolzun mayın 19-da Hollandiyanın baş naziri Mark Rutte ilə görüşü və mayın 20-də Berlində Qətər əmiri Təmim bin Həməd Əl-Tani ilə danışıqların əsas mövzusu neft sanksiyaları və enerji təhlükəsizliyi olacaq. Aİ-nin 27 ölkəsinin xarici işlər nazirləri Avropa Komissiyasının Rusiyadan neft tədarükü ilə bağlı təklif etdiyi embarqo məsələsi ilə bağlı mövqelərini əlaqələndirməyə çalışacaqlar. Aİ diplomatlarının fikrincə, embarqoya ilk növbədə Macarıstanın hakimiyyət orqanları qarşı çıxır və onlar belə bir tədbirin iqtisadi nəticələrindən ehtiyat edirlər. On gün əvvəl Avropa Komissiyası Rusiyadan xam neft və neft məhsullarının idxalına qadağa qoyulmasını təklif etsə də, Aİ ölkələri hələ də bu məsələdə razılığa gələ bilməyiblər. Embarqoya əsasən Macarıstan, Slovakiya və Çexiya Rusiyadan neft tədarükündən çox asılı olduqları üçün etiraz edirlər.

Müharibənin digər iştirakçısı, daha doğruzu ərazisində amansız müharibə gedən Ukraynanın vəziyyəti daha acınacaqlıdır. Ölkənin xüsusən də şərq hissəsi, az bir qismi də cənub hissəsi müharibədən daha çox ziyan çəkib. Şəhərlər, qəsəbələr, kəndlər dağıdılıb, fabrik-zavodlar, sənaye mərkəzləri, infrastruktur məhv edilib. Bu öz yerində. Amma nəzərə alsaq ki, bütün Qərb ölkələri bu müharibədə Ukraynanın tərəfində dayanıb, postmüharibə dövründə bu ölkəyə dəstək verəcəyi, milyardlarla hesablanacaq investisiyaların cəlb olunacağı tam olaraq gözlənilir.

Amma bu müharibədə kimin qalib gəldiyini demək çox çətindir, hətta mümkün deyil. Çünki bu müharibənin qalibi ümumiyyətlə, yoxdur. Məğlub barədə danışanda isə bu siyahıda Rusiya və Ukrayna ilk pillədədirlər. Pandemiyadan sonra çətinliklə özünə gəlməyə çalışan ölkələrin Rusiya-Ukrayna müharibəsində qeyri-müəyyən yol tutmaları da ziyanların daha böyük olacağından xəbər verir.

**V.VƏLİYEV**

ANALIZ

# Ölkənin ərzaq təhlükəsizliyinin təminatı dövlətin iqtisadi siyasətinin əsasıdır

***Hər bir Azərbaycan vətəndaşının yüksək keyfiyyətli ərzaq məhsulları ilə etibarlı təminatı, bu sahədə makroiqtisadi sabitliyə əsaslanan daha yüksək və davamlı inkişafın əldə olunması, ölkə üçün zəruri həcmdə ərzaq ehtiyatının yaradılması və onun müasir tələblər səviyyəsində idarə edilməsi dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindəndir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Oded Foreri ilə görüşdə Azərbaycanla İsrail arasında iqtisadi əlaqələrə toxunuldu, kənd təsərrüfatı sahəsində həyata keçirilən əməkdaşlığın perspektivlərindən danışılıb və İsrailin müasir texnologiyalarının Azərbaycanın kənd təsərrüfatında tətbiqi ilə bağlı fikir mübadiləsi aparılıb.***



### "MÜASİR DÖVRDƏ ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN BÜTÜN ÖLKƏLƏR, O CÜMLƏDƏN AZƏRBAYCAN ÜÇÜN DƏ PRİORİTETDİR"

Dövlətimizin başçısı müasir dövrdə ərzaq təhlükəsizliyinin bütün ölkələr, o cümlədən Azərbaycan üçün də prioritet məsələ olduğunu qeyd edərək, ölkəmizdə kənd təsərrüfatının inkişafı sahəsində görülən işlərdən danışıb. Prezident İlham Əliyev yerli kənd təsərrüfatı istehsalının və ixracatın əhəmiyyətli dərəcədə artdığını vurğuladı, eyni zamanda, idxaldan asılılığın maksimum dərəcədə azaldılması istiqamətində də işlərin həyata keçirildiyini bildirib: "Hazırda biz işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafının planlaşdırılması mərhələsindəyik". Ölkə başçısının sözlərinə görə, qarşıdakı illərdə Azərbaycan FAO ilə səmərəli tərəfdaşlığı davam etdirəcək: "Xüsusilə indi - hər bir ölkə, o cümlədən Azərbaycan üçün ərzaq təhlükəsizliyi ilə bağlı məsələlərin getdikcə daha çox əhəmiyyət kəsb etdiyi bu çətin zamanda. Çünki kənd təsərrüfatı məhsullarının ixracında artım olduğuna baxmayaraq, biz hələ də kənd təsərrüfatı məhsullarını idxal edirik. Görüşümüz zamanı qaldırmaq istədiyim məsələlərdən biri də işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafı ilə bağlı planlarımızdır. Azərbaycan ərazilərinin işğaldan azad edilməsi nəticəsində hazırda biz infrastrukturun, o cümlədən kənd təsərrüfatının inkişafı baxımından həmin torpaqların işlənilməsinin aktiv mərhələsindəyik. Çünki işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı potensialı həqiqətən də çox böyükdür. Bu ərazinin fərqli təbiəti, iqlim qurşaqları və həm yerli istehlak, həm də ixrac üçün istehsalımızı əhəmiyyətli dərəcədə artırmaq imkanı var. Hazırda biz işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafının planlaşdırılması mərhələsindəyik və ona görə də sizin dəyərli tövsiyələriniz yüksək qiymətləndiriləcək". Dövlət başçısı həmçinin, erməni işğalından azad edilmiş ərazilərdə görülən işlərdən, bu torpaqlarda dərhal kənd təsərrüfatı layihələrinin həyata keçirilməsinə başlanıldığını və artıq müəyyən nəticələrin əldə edildiyini bildirib. İşğal dövründə ermənilərin ərazilərimizdə ekoloji soyqırımı törətdiyini vurğulayan Prezident İlham Əliyev xüsusilə bunun nəticəsində bu yerlərin su mənbələrindən də məhrum olunduğunu, buna görə hazırda həmin ərazilərdə su mənbələrinin bərpası və irriqasiya sistemi ilə bağlı genişmiqyaslı işlərin planlaşdırıldığını qeyd edib. Həmçinin, Prezident İlham Əliyev mayın 6-da BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) baş direktoru Qu Donqyunu videoformatda qəbulu zamanı da bildirib ki, Azərbaycanda kənd təsərrüfatının inkişafı hökumətimiz üçün prioritetlərdən biridir: "Çünki birincisi, hazırda hər bir ölkə üçün, ola bilsin ki, bir neçə il əvvəl olduğundan daha vacib olan ərzaq təhlükəsizliyidir. Bizim üçün ikinci məsələ odur ki, bu, bizim artmaqda olan qeyri-enerji ilə bağlı ixracımızın mühüm hissəsini təşkil edir".

### "AZAD EDİLMİŞ TORPAQLARDA KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI ÜÇÜN ÇOX BÖYÜK POTENSİAL VAR"

Ermənistan tərəfindən 30 ilə yaxın müddətdə işğal altında saxlanılan Azərbaycanın tarixi ərazisi - Dağlıq Qarabağ bölgəsi tamamilə vandalizmə məruz qalıb, xalqımıza məxsus çoxəsrlik qədim tarixi-dini abidələr dağıdılaraq yerlə-yeksan edilib, onların bir qismi saxtalaşdırılaraq erməniləşdirilib. Ermənistanın hərbi təcavüzü əkin sahələrimizə, ərzaq istehsalına da mənfi təsir göstərib. Bu təcavüz unikal və təmizqanlı məşhur Qarabağ damazlıq atları üçün ciddi təhdidlərə səbəb olub, təmas xəttində yerləşən kəndlərdə xeyli sayda iri və xırdabuynuzlu heyvan tələf edilib, yem ehtiyatları yandırılıb, on minlərlə hektar əkin sahələrində yığım məhdudlaşdırılıb, kənd təsərrüfatı texnikası sıradan çıxarılıb. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tərəfindən işğal altında olan tarixi torpaqlarımızın düşmən əsarətindən qısa zaman ərzində geri qaytarılması hazırda bu ərazilərdə bərpa prosesinin başlanmasına zəmin yaradıb. Əzəli yaşayış sahələrimizdə tariximizi, mədəniyyətimizi və iqtisadiyyatımızı yenidən canlandırmaq üçün bu ərazilərə mərhələli şəkildə, sektorlar üzrə investisiya qoyuluşlarının və digər sərmayələrin cəlb edilməsi qarşıya mühüm vəzifə kimi qoyulub.Dövlətimizin başçısı hər görüşündə işğaldan azad edilən ərazilərdə yaşıl enerji zonasının, günəş və külək enerjisi növlərinin yaradılması üçün hər cür imkanın mövcudluğunu, su resurslarımızın kifayət qədər geniş həcmli olmasını xatırladaraq, bu işlərə xarici tərəfdaşları, investorları cəlb etməyin, habelə yerli şirkətlərə şərait yaratmağın zəruriliyini vurğulamaqla yanaşı, azad edilmiş torpaqlarda bərpa işlərinin aparılması zamanı mütləq yüksək texnologiyalardan istifadə olunmasını bildirib. Həmçinin, hazırda minalardan təmizləmə prosesinin getdiyini qeyd edərək, bununla bərabər şəhərsalma layihələrinin hazırlandığını da diqqətə çatdırıb. Həmçinin, bu iş yekunlaşandan sonra artıq praktiki inşaat işlərinə start veriləcəyini, infrastruktur layihələri ilə yanaşı, nəqliyyat və texnologiyalar sahələrinin də diqqət mərkəzində saxlanılacağını vurğulayıb.

### "SUVARMA İŞLƏRİ HƏM AZAD EDİLMİŞ TORPAQLAR ÜÇÜN, HƏM BÜTÜN ÖLKƏ ÜÇÜN ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİ ŞƏRTLƏNDİRƏN ƏSAS AMİLLƏRDƏN BİRİ OLACAQ"

Prezident İlham Əliyev bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə bildirib ki, azad edilmiş ərazilərdə suvarma ilə bağlı layihələrin icrası bu il nəzərdə tutulur: "Bu layihələrin xüsusiyyəti ondan ibarətdir ki, hazırlıq işləri çox vaxt aparır. Çünki layihələndirmə işləri düzgün aparılmalıdır, yerlər düzgün seçilməlidir. Harada kanal çəkiləcək, harada su anbarı tikiləcək - bu, doğrudan da vaxt aparan məsələdir. Ona görə mən heç kimi tələsdirmirəm". Dövlətimizin başçısı onu da vurğulayıb ki, artıq təsdiq edilmiş layihələrin icra edilməsi üçün də biz mütləq vəsait tapmalıyıq: "Burada da qeyd olundu ki, biz indi büdcəni profisitlə icra edirik. Vergi orqanları bu ilin 3 ayında proqnozdan əlavə 500 milyon manatdan çox və gömrük orqanları 200 milyon manatdan çox vergi toplamışlar. Yəni, bizim indi imkanımız var". Prezident qeyd edib ki, suvarma işləri həm azad edilmiş torpaqlar üçün, həm bütün ölkə üçün ərzaq təhlükəsizliyini şərtləndirən əsas amillərdən biri olacaq: "Bu layihələr elə icra edilməlidir ki, bizim ümumi suvarma təsərrüfatımıza inteqrasiya olunsun. Bax, buna da çox ciddi fikir vermək lazımdır. Çünki azad edilmiş torpaqların relyefi belədir ki, - xüsusilə Kəlbəcər, Laçın, Qubadlı zonasını nəzərdə tuturam, - oradan həm suvarma suyu, həm içməli su öz axarı ilə gəlib Ağdama, Bərdəyə və digər yerlərə çata bilər. Bu, ümumi suvarma sistemimizə inteqrasiya edilməlidir. Eyni zamanda, biz çaylarımızdan içməli su mənbəyi kimi istifadə etməliyik". Şübhəsiz ki, Azərbaycan işğaldan azad olunan torpaqlarda bu potensialdan üzümçülük, tütünçülük, pambıqçılıq, baramaçılıq, meyvə-tərəvəzçilik, bostançılıq və heyvandarlığın inkişafı üçün səmərəli istifadə etmək gücündədir. Eyni zamanda, bölgədə emal və ərzaq sənayesinin inkişafı potensialı da yetərincədir. Məsələn, ekspertlərin fikrincə, Zəngilan, Kəlbəcər, Qubadlı, Cəbrayıl, Xocalı, Laçın, Tərtər və Füzuli rayonlarında güclü arıçılıq və maldarlıq potensialı mövcuddur. Cəbrayıl və Kəlbəcər ərazilərində balıqçılıq sahəsini inkişaf etdirmək üçün əlverişli şərait var. İpəkçilik üzrə Cəbrayıl rayonu və Şuşa şəhəri, taxılçılıq üzrə Kəlbəcər, Cəbrayıl, Tərtər, Qubadlı, Füzuli və Xocavənd rayonlarını inkişaf etdirmək məqsədəuyğundur. Kənd təsərrüfatı məhsullarının emalı sahəsində Kəlbəcər, Tərtər və Füzuli, gön-dəri emalı üzrə Ağdam, Cəbrayıl, Laçın və Füzuli rayonları geniş potensialı ilə diqqət çəkir.

### "BİZ BUĞDADAN BAŞQA DİGƏR ƏSAS ƏRZAQ MƏHSULLARI İLƏ ÖZÜMÜZÖZÜMÜZÜ TƏMİN ETMƏLİYİK, MƏN BUNA İNANIRAM"

Prezident İlham Əliyev bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə ölkənin taxıla olan tələbatın ödənilməsinə böyük önəm verdiyini bildirərək demişdir: "Ona görə bu real mənzərədir. Bizim istəyimizlə imkanlarımız bu gün üst-üstə düşmür. Ona görə hər kəs bu real vəziyyəti görməlidir və nə mümkünsə biz edirik. Mən demək olar ki, gündəlik formatda bu işlə məşğul oluram. Ümid edirəm ki, ölkəmizdə, o cümlədən kənd təsərrüfatında aparılan islahatlar, iqtisadi mühitin və biznes mühitin yaxşılaşdırılması sayəsində biz böyük dərəcədə bu məqsədlərə çatacağıq. Hər halda biz buğdadan başqa digər əsas ərzaq məhsulları ilə özümüzü təmin etməliyik, mən buna inanıram". Dövlət başçısı bu gün taxılçılıqda məhsuldarlıq 32 sentnerdir, yəni 3,2 ton olduğunu deyib: "Əgər bu rəqəm 4 tona, 4,5 tona çatsa, bu, mümkündür, çünki iri fermer təsərrüfatlarının bəzilərində 7 tondur, bəzilərində 6 tondur. Mən bu təsərrüfatlarda olmuşam və bu təsərrüfatların yaradılmasında da fəal iştirak etmişəm. Onda biz mövcud əkin sahələrində özümüzü maksimum dərəcədə ərzaq buğdası ilə təmin edə bilərik". Prezident azad edilmiş torpaqlarda vaxt itirmədən əkin işlərinə başlanıldığını da bildirib: "Özəl şirkətlərə, fermerlərə təlimat verməyik və artıq orada əkin işləri başlanıb. Amma biz onu da bilməliyik ki, azad edilmiş torpaqlar sovet dövründə daha çox heyvandarlıq üçün istifadə olunurdu. Yəni orada - dağlıq ərazilərdə, xüsusilə Kəlbəcər, Laçın, Zəngilan rayonlarında bitkiçiliklə məşğul olmaq ənənəsi olmayıb. Orada üzümçülük, tütünçülük, heyvandarlıq, pambıqçılıq inkişaf etmişdi. Ermənilər işğal dövründə 100 min hektarda taxıl əkirdilər və təqribən 100 min tona yaxın buğda əldə edirdilər. Yəni bu, Ermənistan üçün böyük rəqəmdir. Amma bizim üçün bu, böyük rəqəm deyil. Əgər azad edilmiş mövcud torpaqlarda taxılçılıq üçün yararlı olan və məqbul sayılan yerlərdə əkin aparılsa, indiki məhsuldarlıqla təqribən 200 min tona yaxın buğda götürmək mümkündür. Yəni bu da reallıqdır. Yəni bu, bizim kəsirimizi, 1,3 milyonluq kəsirimizi örtmür. Onu da bilməliyik ki, əhali artır, ildən-ilə tələbat artır, pandemiyaya görə ölkəmizə xarici vətəndaşların gəlişində azalma olub".

Göründüyü kimi, Azərbaycanda ərzaq məhsullarının bahalaşması prosesinə qlobal iqtisadiyyatda gedən proseslərin məntiqi nəticəsi kimi baxmaq lazımdır. Çünki ərzaq qiymətlərinin artımı problemi ilə dünyanın demək olar ki, bütün ölkələri üzləşib və Azərbaycan da istisna olmayıb. İnanırıq ki, növbəti illərdə də ərzaq təhlükəsizliyinin formalaşması Azərbaycan üçün prioritetliyini qoruyub saxlayacaq və işğaldan azad edilmiş torpaqlar bütün ölkə üçün ərzaq təhlükəsizliyini şərtləndirən əsas amillərdən biri olacaq.

**RƏFİQƏ KAMALQIZI**

# Kənd adları - tariximizin güzgüsü Onları dəyişərkən diqqətli olmalıyıq...

***Xalqın tarixini özündə yaşadan bir çox məqamlar vardır. Arxivlər, muzeylər, canlı abidələr, məscidlər, pirlər kimi, yer adları, hətta insan adları tarixin güzgüsüdür. Zaman-zaman bunları qoruyub saxlamaqla, əsrlərdən-əsrlərə adlatmaqla tarixin güzgüsündə özümüzü görə bilərik. O güzgüdə gördüklərimiz dünənimizdir. Dünənimizi bu günə gətirib çıxarmaq, bu gündən gələcəyə aparmaq isə, təbii ki, öz əlimizdədir. Azərbaycan tarixin keşməkeşli yollarında hər zaman maneələrə rast gəlmişdir. Yad əllər, tamah dişləri həmişə bu xalqın üstündə olmuşdur. Alın yazımız olanlar, qonşu nəsibimiz istəkləri naminə məqam düşən kimi tariximizə əl gəzdirməklə gələcək planlarını asanlıqla yerinə yetirmək üçün şərait yaradıblar. Buna səbəb nə olub?***



ARAŞDIRMA

### 70 ilin əsarəti

Düşünürəm ki, 1918-ci ildə əldə etdiyimiz müstəqilliyimizi qoruyub saxlaya bilsəydik, başımıza da bu qədər bəlalar gəlməyəcəkdi. Hamımızın məlumatlı olduğu o bəlaları qoyaq bir kənara. Mövzumuzla əlaqədar olanlarından - 70 ildə şəhər, rayon, qəsəbə və kənd, küçə adlarımızın dəfələrlə dəyişdirilməsindən söhbət açaq. Nankor qonşumuzun bu məsələdə fəallığı, arxa-dayaqlarının köməyi ilə nələr etdikləri də məlumdur. Zaman-zaman bizimlə bir rayonda, kənddə yaşaya-yaşaya gələcək üçün guya bu torpaqların sahibi olduqlarını təsdiq edən mənbələr hazırlayıblar. Yalan və böhtanları ilə özlərini dünyaya qədim torpaq sahibləri kimi tanıtmağa çalışıblar. Belə olan halda isə onların qarşısına ziyalılar, tarixçilər, etnoqraflar çıxıb, həqiqəti tarixin süzgəcindən keçirib ortaya qoymağı bacarıblar. Belə ki, müstəqillik illərində dəfələrlə rayon, qəsəbə və kənd adlarımız araşdırılıb, onların qədim adları müəyənləşdirilib və dəyişdirilib.

Qarabağın 30 illik işğalı dövründə də ermənilər rayon, kəndlərimizə qondarma adlar vermişdilər ki, onların əksəriyyəti torpaqlarımız azad edildikcə dövlətimizin başçısı tərəfindən dəyişdirildi. Digər yer adlarının araşdırılması haqqında göstəriş verildi.

Vətən müharibəsindən sonra işğaldan azad olunan Kəlbəcər və Laçına səfər edən Prezident bir daha vurğuladı ki, indiki Ermənistan ərazisində yerləşən bütün qədim Azərbaycan yaşayış məntəqələri əsl adları ilə çağırılmalıdır: "Misal üçün, Naxçıvan-Ermənistan sərhədində mövcud olan gərginliklə bağlı mən indi mətbuatı izləyirəm. Bizim mətbuatda yazılıb ki, Ermənistanın "Yerasx" kəndində, onun ətrafında hansı hadisələr baş verir. Bu kəndin adı Arazdəyəndir və azərbaycanlılar deportasiyaya qədər orada əbədi yaşayıblar. Ona görə bütün qədim, yəni tarixi adlar bərpa edilməlidir. Bu adlar bizdə müxtəlif kitablarda da öz əksini tapıb. Ona görə xahiş edirəm ki, həm jurnalistlər, həm ümumiyyətlə, insanlarımız bu yerlərin əsl adlarını çəksinlər - Vardenis yox, Basarkeçər rayonu, Basarkeçər şəhəri".

### Kənd adlarımız - tarixin özü

Yer-yurd adlarından söhbət düşəndə ermənilərdən xilas edilən rayon, kəndlərimizlə yanaşı, digər kəndlərimizə də nəzər salınmalıdır. Çünki bu adlar tariximizin güzgüsüdür. Kəndlər öz adları ilə gələcək nəsillərin istinad yerləridir. Ona görə də indi xeyli sayda kəndlərimiz var ki, onların adlarına yenidən baxmaq lazımdır.

Kənd adları tək etnoqrafların deyil, hər bir vətəndaşın diqqətini cəlb edir. Kəndlərimizdə uznömürlü insanlar var ki, onlar etnoqraflar üçün canlı abidədir. Nə qədər ki, yaşayırlar, onların söhbətinə, məsləhətinə də ehtiyac var. Çünki elə kəndlərimiz var ki, həmin uzunömürlü insanların söhbətinə əsasən o kəndə tarixi ad vermək olar.

Bu günlər kəndlərimizin adlarına nəzər salarkən onlardan bir neçəsi haqqqında fikirləşməli oldum. Tarixçi, etnoqraf olmasam da, bir ziyalı kimi o kəndlərin adları məni çox maraqlandırdı.

### Diqqətçəkən kənd adları

Tərtər rayonunda Sarov, Bəyimsarov və Maralyansarov adlı kəndlər var. Bu kəndlərə məxsus toponimdə göstərilir ki, Sarov kəndi Cənubi Azərbaycanın Sərab mahalından gəlmə ailələrin məskunlaşması nəticəsində yaranmışdır. Goranboy və Tərtər rayonlarında keçmişdə üç Sarov adlı kənd vardı. İkisi Goranboy (keçmiş Qasım İsmayılov) rayonunda imiş. Sarovların birində ermənilər gəlib yaşadığına görə erməni Sarov, digəri Müsəlman Sarov adlanmışdır.

Bəyimsarov İncəçayın sağ sahilində, Qarabağ düzündədir. XVIII əsrə aid sənədlərdə kəndin adı Sarov kimi qeydə alınmışdır. Yerli əhalinin verdiyi məlumata görə, yaşayış məntəqəsini Cənubi Azərbaycanın Sərab əyalətindən gəlmiş ailələr saldığı üçün belə adlandırılmışdır. Sonralar bu kənd Qarabağ xanı Mehdiqulu xanın bacısı Azad bəyimə cehiz olaraq verildiyi üçün kəndin adının əvvəlinə bəyim sözü əlavə edilmişdır.

Maralyansarov isə Cənubi Azərbaycanın Ərdəbil əyalətinin Bərzənd mahalında Maraluy kəndindən çıxmış ailələrin XVI əsrdə məskunlaşması nəticəsində yaranmışdır. Bu da Maraluy kəndadından fars dilində cəm bildirənan şəkilçisindən ibarətdir.

Göründüyü kimi, hər üç kəndim toponimi bir-birinə bənzəyir. Cənubi Azərbaycandan gəlmiş ailələrin məskunlaşdığı üçün yaranmışdır. Lap yaxşı. Lakin ola bilməz ki, bu kəndlərin yerləşdiyi ərazilərin qədim adları olmasın. Kəndlərə həmin qədim adlar verilərdisə, daha yaxşı olardı. Məsələn, Bəyimşarov sadəcə olaraq Bəyim kəndi də adlandırıla bilər. Digərləri isə təbii ki, yerləşdikləri yerlərlə bağlı olarsa, daha anlaşıqlı adlarla qarşılaşarıq.

Tərtər rayonunun digər bir kəndi var- Qasapet. Kəndin tarixi haqqında məlumat belə təqdim olunur: 1593-cü ildə Osmanlı İmperiyasının Gəncə-Qarabağ əyalətinin Xaçın sancağının Çiləbörd nahiyəsinin kəndi.Kəndin adı Qəssablar olaraq keçir. 1727-ci ildə Osmanlı İmperiyasının Gəncə-Qarabağ əyalətinin Qarabağ livasının Çiləbörd nahiyəsinin kəndi.Kəndin adı Qıssaabad olaraq keçir.

Bu kəndin adını Qəssablar olaraq saxlamaq Qasapetdən daha yaxşı olmazdımı?

Başqa bir kənd adı-Qazyan. Kəndin tarixi belə izah olunur: Kəndin düzgün adı "Qazian"dır (yəni qazılar). Ərəb dilində qazi "kafirlərə qarşı vuruşan döyüşçü vədəstə, qoşun başçısı" mənasındadır. Orta əsrlərdə qazilər həm sərhəd qoşunu, həm də dini qurumların və dövlətin başlıca zərbə qüvvəsini təşkil edirdilər. "Kitabi Dədə Qorqud"da qazi - ərənlər formasında işlənir. Qızılbaş tayfaları içərisində qazilər (qazian) tayfası da vardır. Azərbaycan ərazisindəki Qazian (Qazyan) adlı toponimlər bu tayfaların adı ilə bağlıdır. Qazyan coğrafi adının mənası belədir: an - məkan, yurd, oba adını bildirir. "Qazi" isə tayfa adıdır, yəni "qazi" tayfalarının yaşadığı yer mənasını verir.

Hər iki mənada "Qazi" və bu tayfanın yaşadığı yer mənasını ifadə edirsə, bu kəndin adını Qazyan deyil, Qazilər adlandırmaq daha müvafiq olmazdımı?

Digər kəndimiz isə Meqrelalaydır. Tarixçəsində göstərilir ki, əvvəllər Ağdərə rayonu inzibati ərazisinə aid idi, lakin 1992-ci ildə Ağdərə rayonu ləğv edilərək ərazisi qonşu Ağdam, Tərtər və Kəlbəcər rayonları arasında bölüşdürüldü. Meqrelalay kəndi də Tərtər rayonuna birləşdirilən kəndlərdən biridir. Kəndin adı 29 dekabr 1992-ci ilə qədər Minqrelks olmuşdur.

Tərtərin digər kəndi isə Zolgərandır. Azərbaycan dilinin dialektlərində zol "gön parçası", zola isə "yoğun ağac, tir" mənalarında işlənir. Kəran toponimik termin olub "kənd" mənasını ifadə edir. Yəni belə bir nəticə çıxarmaq olar ki, bu kəndin adının mənası yoğun ağaclı kənddir.

Düşünürəm ki, həm Meqrelalayın, həm də Zolgəranın yerləşdiyi əraziyə uyğun yeni, anlaşıqlı adların verilməsinə ehtiyac var.

Maraqlıdır, Tərtər rayonunda olan Serov, Maralyanserov və Bəyimserov kəndlərinin adları Cəbrayıl rayonunda Aşağı Maralyan və Yuxarı Maralyan adındadır və tarixçələri də oxşardır: Bəzi tədqiqatçılara görə, yaşayış məntəqəsi Cənubi Azərbaycanın Maraluy kəndindən çıxmış ailələrin XIX əsrin əvvəlində şimala köçərək burada məskunlaşması nəticəsində yaranmışdır və "maraluylular" mənasındadır. Başqa bir versiyaya görə isə "mara" - örüş, "li" - mənsubiyyət və "an" - məkan, yer bildirən şəkilçilərdən yaranmış və "örüşü olan yer" mənasını verir.

Cəbrayılın bu kəndlərinə də kəndin həmin ərazilərinin öz adını vermək daha yaxşı olardı. Məsələn Aşağı Örüşlü və Yuxarı Örüşlü kimi. Çünki kimsə haradan bizim ərazilərə köçərkən həmin ərazilərə onun kəndinin adını verməkdənsə, bizim ərazinin tarixi adını vermək daha yerinə düşmüş olar.

Cəbrayıl rayonunda daha iki kənd haqqında danışaq: Sirik və Aşağı Sirik. Kəndlərin oykoniminin sirak tayfasının adı ilə bağlılığı güman edilir. 1917-ci ildə kəndin adı Sirikli kimi qeydə alınmışdır. Sirik türk dillərində "çubuq" deməkdir. Oykonim "çubuqlu" mənasındadır. Keçən əsrdə Quba rayonunda Çubuxlu Qışlaq, Qusar rayonunda Çubuxlu kəndləri olmuşdur.

Sirik və Aşağı Sirik adlarındansa bu kəndlərin adlarını keçən əsrdəki kimi Çubuqlu və ya Çubuqluq, Aşağı Çubuqlu, yaxud Aşağı Çubuqluq kimi dəyişmək daha başa düşülən, dilə yatan şəkildə olar.

Kəlbəcər rayonunda da maraqlı kənd adları ilə qarşılaşmaq mümkündür. Məsələn, çox maraqlı kənd adı: Bağırsaq kəndi. Tarixçəsində göstərilir: Kəlbəcər rayonunun Yanşaq inzibati ərazi vahidində kənd. Kəndin ərazisi əvvəllər yaxınlıqdakı Qamışlı kəndinin binəsi olmuşdur. Tədricən həmin kənddəki ağayarlı və qazıxanlı nəsillərinə mənsub ailələr burada məskunlaşdıqdan sonra daimi yaşayış məntəqəsinə çevrilmişdir. Kənd öz adını ərazidəki eyniadlı çay dərəsindən və bulaqdan almışdır. Burada dərənin relyef formasının əyri-üyrülüyünə, bağırsaqşəkilli olmasına görə belə adlandırılmışdır.

Zamanında bu kəndə ad verərkən düşünürəm ki, relyef formasının əyri-üyrülüyünü bağırsağa oxşadıb kəndin adını Bağırsaq qoymaqdansa, Əyri Dərə kəndi qoymaq daha uyğun olardı. Çünki adama sual verəndə ki, haralısan, deyəcək ki, bağırsağlı. Və yaxud da Kəlbəcərin digər üç kəndi - Bağlıpəyə, Güneypəyə, Tövlədərə kimi. Deyəndə ki, haralısan, cavab bu olur: bağlıpəyəli, güneypəyəli, yaxud tövlədərəli.

Kəndlərin tarixçələrinə nəzər salaq: Bağlıpəyə- Kəlbəcər rayonunun Ağdaban inzibati ərazi vahidində kənddir. Tərtər çayının sahilində, Murovdağ silsiləsinin ətəyindədir. Kəndin ərazisində qayalıqdakı mağara yaxınlığında keçmişdə kolanılara məxsus mal-qara saxlanılan pəyə yerləşirdi. Mağaranın uc tərəfi bağlı olduğu üçün ərazi belə adlanırdı. Kəndin adı əvvəllər Məşədiməmmədli olmuşdur. Keçmişdə Kolanı tayfasının Məşədiməmmədli nəslinə mənsub ailələr burada məskunlaşmışdılar. Oykonim bağlı və pəyə (tövlə) sözlərindən düzəlib, "qapalı, bağlı tövlə; heyvanların bağlandığı yer" deməkdir.

Güneypəyə kəndi Şərqi Göyçə silsiləsinin ətəyindədir. Kəndin ərazisi əvvəllər Qılıclı kəndinin qoyun binəsi olmuşdur. Yaşayış məntəqəsi XIX əsrdə Qılıclı kəndindən gəlmiş ailələrin güneydə yerləşən bu binədə məskunlaşması nəticəsində yaranmışdır.

Tövlədərə kəndi dağlıq ərazidədir. Yaşayış məntəqəsi əvvəllər qonşu Çiraq kəndinin binə yerində salınmışdır. Kəndin yerləşdiyi dərədə mal-qara tövləsi olduğu üçün dərə Tövlədərə adlanmışdır. Sonralar bu ad kəndə də verilmişdir. Oykonim "tövləsi olan dərədə yerləşən kənd" mənasındadır. Bu kəndin ərazisində qış və yay aylarında malqoyun saxlamaq üçün çox əlverişli bir şərait olduğundan, bu ərazidə Çıraq kəndinin sakinləri tövlə tikib heyvandarlıqla məşğul olurmuşlar. Sonralar həmin yerdə yaşayış məskəni salıb adını tövlədərə, yəni tövlələr yerləşən dərə qoyublar. Kəndin bünövrəsini Məmmədalı adlı bir şəxs qoymuşdur. O, kənd camaatının ulu babası sayılır.

Hər üç kənddə gözəl yaylaqlar, bulaqlar var. Bu kəndlərə həmin yaylaq və bulaqların adına uyğun bir ad seçmək olardı. Kəlbəcər qədim tarixi olan ərazimizdir. Burada o qədər tarixi adlar var ki, onları bu kəndlərin adlarında yaşatmaq daha məqsədəuyğun olardı.

Kəlbəcərin digər maraq doğuran kəndləri Zar və Ziveldir. Zar kəndi tarixdə Şəhrizər kimi tanınır. 1970-1980-cı illərə kimi yaşayan çoxyaşlı sakinlər Zara Şəhrizər deyildiyini öz ata-babalarından eşitdiklərini söyləyirdilər. Zər sözü qızıl deməkdir. Şəhrizər, yəni qızılla zəngin olan şəhər deməkdir. Belə ki, Zarın ərazisində torpağın altından teztez tapılan qızıl dəfinələr bu sözün həqiqət olmasını təsdiq edir. Əfsuslar olsun ki, Şəhrizər sözünün Zar sözünə keçməsi tədqiq edilməmişdir. Zivel kəndi isə Dəmirdağın ətəyindədir. Kəndi qaraçorlu (hazırda çorlu nəsli adlanır) tayfasına mənsub ailələr hər tərəfi sıldırım olan ensiz uzunsov yerdə salmışlar. Zivel sözü zolaq deməkdir. Kənd iki çayın, Quruselaf və Qaraarxac çaylarının axdığı iki dərənin arasında yerləşir. Dərə zolaq şəklində şərqdən qərbə doğru uzanır. Kəndin adı buradan götürülmüşdür.

Maraqlıdır, vaxtilə bu kəndlərə ad qoyanlar nə üçün görəsən "Zar"ı "Zər", "Zivel"i "Zolaq" və ya "Çay Zolaq" kimi düşünməyiblər. Axı mümkün olardı.

Kəlbəcərdəki Güneypəyə kəndindən Ağdam rayonunda nə az, nə çox, ikisi var: Baş Güneypəyə və Orta Güneypəyə. Baş Güneypəyə kəndi Qavartu çayının sahilində, dağ ətəyindədir. Oykonim baş (yuxarı), güney (cənub, gün düşən yer) və pəyə (burada yaşayış məntəqəsi) komponentlərindən düzəlib, "yuxarıda yerləşən Güneypəyə kəndi" mənasındadır. 4 noyabr 1991-ci ildə isə Orta Güneypəyə kənd Soveti yaradılmış və Orta Güneypəyə kəndi Baş Güneypəyə kənd Sovetinin tərkibindən onun tərkibinə verilmişdir.

Beləliklə, Ağdamın bu kəndlərində yaşayanlar da eyni suala, haralısan, sualına başgüneypəyəli, ortagüneypəyəli cavabını verməli olurlar. Hansı ki, o kəndlərin adlarını Ağdamın tarixi yerləri ilə əvəzləşdirmək olardı, yaxud da Baş Güneyli və ya Orta Güneyli qoymaq olardı.

### Kəndlərimizə ad verərkən düşünək...

Yuxarıda da qeyd etdiyim kimi, yer adlarımız tariximizin güzgüsüdür. Bəli, hər bir rayon, şəhər, kənd adlarımız tariximizi özündə əks etdirir. Buna görə də onları qorumaq hər birimizin vəzifəsidir. Lakin bəzi hallarda, hansısa səbəbdən bu adları dəyişdirmək məcburiyyəti də yaranır. Bax belə anda daha diqqətli olmalıyıq. Bu, tarixçilərimizin, etnoqrafların vəzifələri olsa da, bizim də jurnalist, ən əsası isə vətəndaş kimi bu məsələlərə müdaxilə etməyə haqqımız var. Çünki elə kəndlərimiz var ki, onun toponimini nə qədər axtarırsan tapa bilmirsən. Bilmirsən ki, adı nəyin əsasında ona verilib. O da bu cür bayağı səslənən adlarla özünü göstərir.

Şəxsi fikrimdir, tarixçi, etnoqraf olsaydım, mən pəyə, tövlə sözlərini kənd adlarına əlavə etməzdim. Araşdırmışam, haqqında danışdığım kəndlərin gözəl tarixi yerləri, yaylaq və bulaqları var, onlarla bağlı ad vermək olardı.

Digər tərəfdən isə bir-birinə yaxın, məsələn, yuxarıda vurğuladığım kimi, zar və zər və yaxud zivel və zolaq sözləri olan təqdirdə dilə daha yatımlı olanı, mənasını anladığımızı kənd adı kimi seçmək yaxşı olardı.

Bir sözlə, kənd adlarımız tariximizi, coğrafiyamızı, həyat tərzimizi, mədəniyyətimizi, məşğuliyyətimizi özündə əks etdirir. Bütün bunları nəzərə alaraq həmişə diqqətli olmalıyıq.

***Mətanət Məmmədova***




## "Formula 1" Azərbaycan iqtisadiyyatına necə təsir göstərir?

***"Formula 1" yarışlarının Azərbaycanda keçirilməsi bir tərəfdən ölkənin tanıdılması ilə bağlı məsələləri bizim xeyrimizə həll edir. Digər tərəfdən isə ölkə iqtisadiyyatına bu yarışlar olduqca müsbət təsir göstərir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Mahir Abbaszadə bildirib.***

Onun sözlərinə görə, uzun müddət Azərbaycan ölkənin tanıdılması ilə bağlı mühüm işlər görüb: "Burada "Formula 1" yarışlarının da xüsusi çəkisi var. Çünki "Formula 1" yarışlarının işıqlandırılması arealarına baxsaq görərik ki, dünyada çox məşhur idman növlərindən biridir və kifayət qədər bu yarışın izləyiciləri var. Bu yarışmanın keçirilməsi və bunun qrup mərhələsinin Azərbaycanda keçirilməsi isə böyük marağa səbəb olur. Amma digər bir tərəfdən də nəzərə almaq lazımdır ki, "Formula 1" ölkəmizdə turizm iqtisadiyyatına müsbət təsir göstərən amillərdəndir.

Bu yarışlarda iştirak edən şəxsləri izləmək üçün gələn tamaşaçılar və b. gəlib ölkəmizdəki müasir inkişafı gördükdən sonra artıq buraya yenidən gəzmək, istirahət etmək üçün gələcəklər. Bir sözlə "Formula 1" yarışları ümumilikdə ölkənin dünyada tanıdılması, turizmin, logistikanın inkişaf etdirilməsi baxımından müsbət hadisə kimi qiymətləndirilir. Azərbaycanda "Formula 1" yarışlarının keçirilməsi həm də inkişaf kimi qiymətləndirilmələdir. Azərbaycan bu yarışları keçirməklə böyük dövlətlərə mesaj göndərdi ki, biz beynəlxalq idman yarışlarını Azərbaycanda keçirə bilirik və bunun üçün yetərli qədər şəraitimiz var. Bu gün artıq Azərbaycan bu istiqamətdə də müsbət nailiyyətlər əldə etməkdədir".

***Səbinə Hüseynli***

## "Şagirdlərin bilik və bacarıqları ildən-ilə aşağıya doğru gedir"



"Təhsil sistemində son illərdə ölkə başçısı tərəfindən böyük işlər görülüb. Təhsil ölkə başçısının ən çox diqqət yetirdiyi birinci sahələrdəndir". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Onun sözlərinə görə, buna baxmayaraq istər orta məktəblərdə, istər ali təhsil müəssisələrində keyfiyyətin yüksəldilməsi istiqamətində problemlər mövcuddur: "9-cu sinif şagirdləri üçün 2022-ci ilin bu il apel ayında keçirilmiş buraxılış imtahanının nəticələri açıqlandı. İmtahanda iştirak etmiş şagirdlərdən heç kim maksimum bal toplaya bilməyib. Amma 2021-ci ildə keçirilmiş buraxılış imtahanında iştirak etmiş şagirddən 2 şagird onlara təqdim olunmuş bütün tapşırıqlara düzgün cavab verib və maksimum nəticə - yəni 300 bal toplayıb.

2022-ci ilin aprel imtahanı Bakı şəhərini, 14 aprel isə bölgələri əhatə edirdi. Nəticə göstərir ki, regionlarda şagirdlər yeni imtahan modelinə tam şəkildə hazır deyil və yeni test tapşırığı modellərini mənimsəməyiblər. Buraxılış imtahanında (9-cu sinifdən kolleclərə qəbul) abituriyentlərə tədris dili fənnindən 30, riyaziyyat fənnindən 25, xarici dil fənnindən 30 tapşırıq olmaqla ümumilikdə 85 tapşırıq təqdim olunur. Bu mərhələdə fənlərin hər biri üzrə toplanıla biləcək maksimal bal 100, ümumi yekun bal isə 300-dür. Nəticələri təhlil edəndə görürük ki, test tapşırıqlarının ağırlıq səviyyəsində dəyişiklik olmasa da, şagirdlərin bilik və bacarıqları ildən ilə aşağıya doğru gedir".



***Arzu Qurbanzadə***

# "Xarıbülbül" festivalı hər bir azərbaycanlının qürurudur!

***Dünyanın nəzər nöqtəsində olan Azərbaycanın reallıqları Prezident İlham Əliyevin müdrik siyasətindən qaynaqlanır. 44 günlük Vətən müharibəsi bir daha dünyanı Azərbaycanın gücü, reallıqları ilə təəccübləndirdi. Dünyanın heç bir nöqtəsində 44 günlük zaman məsafəsində hansısa müharibəni qalibiyyətlə başa vurmaq görünməmiş hal idi. Bunu tarixə Azərbaycan yazdı. 44 gün və qalib, müzəffər Azərbaycan xalqı. Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktikanın döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatı XXI əsrin müharibəsi olaraq dünya tarixində yer aldı. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin bildirdiyi kimi, İkinci Qarabağ müharibəsi bizim gücümüzü göstərdi, müasirliyi göstərdi.***












Azərbaycan hərbi, iqtisadi gücü ilə dünyanın diqqətini özünə cəlb etdiyi kimi, bu gün işğaldan azad olunan ərazilərimizdə həyata keçirilən abadlıq-quruculuq işləri ilə də dünya dövlətlərinin diqqətindədir. 2020-ci ilin noyabrın 8-də 28 illik həsrətdən sonra Şuşa şəhəri işğaldan azad edildi. Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciətində "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!", - deyərək xoş müjdəni verdi. Cənab İlham Əliyev bütün dünyaya Azərbaycanın gücünü, tarixi ədaləti diplomatik yol ilə bərpa etdiyini göstərdi.

## GERÇƏKLİYƏ ÇEVRİLƏN ARZULAR

Şuşa şəhərində keçirilən tədbirlər bir daha dünyanın diqqətəni ölkəmizə - tarixi Şuşa şəhərimizə cəlb edir. Uzun illərdən sonra yenidən Şuşada, Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının keçirilməsi bir daha dünyaya göstərmiş oldu ki, işğaldan azad olunan torpaqlarımızda yeni, qaynar həyat başlanıb. Əlbəttə ki, "Xarıbülbül" musiqi festivalı hər bir azərbaycanlı üçün böyük qürurdur. Musiqi beşiyi, musiqi məbədi olan Şuşada belə bir tədbirin keçirilməsi hər birimizin müqəddəs arzusu, istəyi idi ki, bu gerçəkliyə çevrildi. Vurğulamaq yerinə düşər ki, ötən il "Xarıbülbül" musiqi festivalının açılışında çıxışında Cənab İlham Əliyev festivalın məhz Ramazan bayramı ərəfəsində təşkil edilməsinin təsadüfi olmadığını bildirərək "Biz öz dini, milli, mənəvi köklərimizə bağlı olan xalqıq. Əks-təqdirdə, biz heç vaxt işğala son qoya bilməzdik. Biz bütün bu illər ərzində bir amalla yaşamışıq - torpaqları azad edək, ədaləti bərpa edək, milli ləyaqətimizi qoruyaq və buna nail olduq", - deyə bildirmişdir.

Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı start götürdü. Şuşa şəhərinin 270 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə elan edilən "Şuşa İli"ndə keçirilən V "Xarıbülbül" Beynəlxalq Folklor Festivala dünyanın müxtəlif ölkələrindən gələn folklor üslublarında çıxış edən musiqiçilər, rəqs kollektivləri, həmçinin Azərbaycanın müxtəlif regionlarından folklor kollektivləri qatılıblar. Şuanın qoynunda ifa olunan "Qarabağ şikəstəsi"nin sədalarının Şuşa dağlarına yayılması əlbəttə ki, böyük bir sevgimizin izharıdır. İllərlə həsrətlə gözlədiyimiz bir məkanın qoynunda belə möhtəşəm tədbirin keçirilməsi qürurumuzdur.

Festival çərçivəsində milli rəqs, muğam sənəti təqdim olunub, ölkəmizin müxtəlif regionlarını və milli azlıqları təmsil edən folklor kollektivlərinin konsertləri keçirilib, Azərbaycan xanəndələrinin müxtəlif illərdə Şuşada lentə alınmış ifalarından ibarət videoçarxlar nümayiş etdirilib, klassik musiqi əsərləri təqdim olunub.

## "VERİLƏN GÖSTƏRİŞLƏR YERİNƏ YETİRİLİR"

Bu gün Böyük Qayıdış üçün lazımı tədbirlər həyata keçirilir. Şuşada reallaşdırılan infrastruktur layihələr və tədbirlər bir daha sübut edir ki, bu müqəddəs şəhər yenidən dirçəlir və yeni bir inkişaf, abadlıq və quruculuq dövrünə qədəm qoyub.

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşa şəhərində Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən və dövlət başçısının bilavasitə nəzarəti altında qədim tarixi və memarlıq üslubu qorunub saxlanılmaqla Şuşa şəhərinin, tarixi və dini abidələrin, muzeylərin planlı şəkildə bərpa olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Şuşada Gövhərağa məscidinin bərpası Azərbaycanın öz dəryələrinə milli-mənəvi islami dəyərərinə olan ehtiramın nümunəsidir. Dövlət başçısının bildirdiyi kimi, "Bundan sonra biz Şuşada əbədi yaşayacağıq və Şuşanın bərpa edilməsi artıq başlanmışdır. Verilən göstərişlər yerinə yetirilir".

Azərbaycanın qədim şəhəri Şuşanın 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və o vaxtdan işğal dövrünə qədər bu şəhərdə həmişə azərbaycanlılar yaşayıblar. Qədim mədəniyyət beşiyi olan Şuşanın daş yaddaşı tarixin keçməkeşli yollarının hər bir ilini silinməz səhifəsinə yazmışdır. Nə qədər hücumlara məruz qalsa da, öz məğrurluğunu qoruyub saxlamışdır.

İndi Şuşa yeni dövrünü yaşayır. Bu gün Şuşa dağları həsrətlə yaşadığı, acıdığı musiqimizə, sənət dünyamıza qovuşub. Toy-büsatlı Şuşamızda yenidən "Xarı Bülbül" Beynəlxalq musiqi festivalı keçirilir. Artıq hər kəs rahatlığa qovuşub. Üzeyirin, Natəvanın, Bülbülün güllələnmiş heykəlləri də Şuşada rahat nəfəs alır. Uzun illər R.Mustafayev adına Azərbaycan Dövlət Muzeyində saxlanılan heykəllər rahatlıq tapıb. Şuşa, "Cıdır düzü", "İsa bulağı" həsrətində olduğu sakinlərinə, Azərbaycan musiqisinə qovuşub.

***Nəzakət ƏLƏDDİNQIZI***

# “Gələcək kitab oxuyan gənclərin əlindədir”



**Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirovun SİA-ya verdiyi müsahibəsini təqdim edirik:**

***-Azərbaycanda əksər gənclərin problemlərindən biri mütaliə ilə bağlıdır. Kim, nə qədər kitab oxuyur, mütaliə niyə gündəlik vərdiş olmaqdan çıxıb, bunu necə aradan qaldırmaq olar? Gəncləri kitab oxumağa necə cəlb edə bilərik?***

- Çox doğru sualdır. Həqiqətən də gənclərin mütaliə etməsində müəyyən əngəllər var. Biz bu məsələ üzərində 10 ildir məşğuluq. Müəyyən tədbirlər keçirməklə, informasiyalarla, reklam materialları ilə, televiziyada, mətbuatda çıxışlarla gəncləri mütaliəyə dəvət edirik. Eyni zamanda müəyyən işlər görürük. Bu işlər də son anda gənclərin mütaliəyə cəlb olunmasına təkan verir. Bu da artıq hiss olunmaqdadır.

Son 10 ildir ki, Milli Kitabxananın, Mədəniyyət Nazirliyinin və digər təşkilatların birgə şəkildə apardığı işlər öz bəhrəsini verməyə başlayıb. Gənclərdə kitaba böyük qayıdış var. Yəni, günümüzdə kitaba həvəs artır. Ölkədə sıx aralıqla kitab sərgiləri keçirilir. Bütün bunlar hamısı gənclərin kitab və mütaliəyə cəlb olunmasına xidmət edir.

Dəmək olmaz ki, gənclər kitab oxumur. Oxuyurlar, amma gəlin görək kifayət qədər oxuyurlarmı? Az və ya çox da olsa oxuyurlar. Amma ümumiyyətlə oxumurlar demək düzgün deyil. Ən azı Milli kitabxanaya gəlsəniz görərsiniz ki, zallarımız gənclərlə doludur. Əgər Milli Kitabxananın oxucularının hardasa 85 faizi gənclərdirsə, bu sevindirici haldır. Mən, həmişə bu rəqəmi fərəhlə qeyd edirəm. Amma oxumaq üçün gənclərə şərait yaradılmalıdır. Milli Kitabxanada gənclər üçün kifayət qədər şərait yaradılıb. Biz burada elə bir təbliğat aparmalıyıq ki, gənclərimiz kitabxanalara üz tutsunlar.

Arzu edirəm ki, bütün kitabxanalarımızda belə şərait yaradılsın. Bu zaman bütün problem həll olar. Əsas məsələ yeni kitabların çapı, ikinci məsələ isə şərait olmasıdır. Yeni kitablar olmasa, köhnə kitabları gənclər oxumur. Çünki ilk öncə müasir gənclik latın qrafikasında oxuyur və latın qrafikasında olan kitablarımız o qədər də çox deyil. Bu sahədə də işlər görülür. Cənab Prezidentin sərəncamı ilə kifayət qədər latın qrafikasında kitablar çap olunub. 700 addan artıq kitab 25 min tirajla çap olunub. Bu böyük bir işdir və gənclərə kitab oxumağa şərait yaradır. Bu proses sürətlə davam edərsə və artarsa gənclərin kitaba qayıtmasına şərait yaradar. Həmçinin, cənab Prezidentin sərəncamı ilə Kitab və qəzet kağızları üzərindən ƏDV-nin aradan qaldırılması kitab nəşrini sürətləndirərək gənclər üçün yeni kitablar ərsəyə gətirəcək.

***- Sizcə, hazırda kitabların qiyməti nə qədər bahadır?***

***Yəni, maddi məsələlərmi kitab oxumağı əngəlləyir?***

- Hər şey nisbi götürülməlidir. Mən deməzdim ki, kitab bahadır. Çünki əgər kitab baha olsa, o alınmaz. Mənə elə gəlir ki, burada kitab biznesi əsas rol oynayır və bizim naşirlərimiz də onu nəzərə alırlar. Onlar çalışırlar ki, kitab baha olmasın ki, onu alan olsun.

Bizim kitab sərgilərimiz olur və bu sərgilərdə kitabı 50 faiz güzəştlə satırlar ki, gənclər ala bilsin. Əgər naşirlər nəşr etdikləri kitabları öz anbarlarında saxlasalar və sata bilməsələr onlar yaşaya bilməzlər. Ona görə də çalışırlar kitabı ucuz etsinlər ki, gənclər oxuya bilsin.

Digər tərəfdən kitabxanaların elektron resursları var. Bu da vacibdir. Bəzən mənə sual verirlər ki, ”siz gənclərin elektron, yoxsa ənənəvi kitabdan oxumasının tərəfdarısınız?”. Bir kitabxanaçı olaraq istəyərdim ki, gənclər ənənəvi kitab oxusunlar. Amma bir halda ki, gənclərin marağı elektron kitabadır, bu da onların savadlanmasına kömək edəcəksə qoy oxusunlar. Təki gənclər oxuyub, mütaliə edib kitabla dost olsunlar.

***- Milli Kitabxanada hal-hazırda nə qədər kitab var?***

**"Bu gün kitabxanamızda 5 milyona yaxın kitab və digər nəşrlər mühafizə olunur"**

- Bu gün kitabxanamızda 5 milyona yaxın kitab və digər nəşrlər mühafizə olunur.

***- Azərbaycanda və dünyada kitabla bağlı hansı kampaniyalar keçirilir?***

- İlk öncə ölkəmizdən başlayaq. Ölkəmizdə bu kampaniyalar gənclərin və digər insanların mütaliəyə cəlb olunması üçün təşkil edilir. Milli Kitabxanada olan ”Açıq kitabxana” da məhz bu konteksdədir. Belə aksiyalar çox olur. Elə həftə yoxdur ki, Milli Kitabxanada kitab təqdimatı olmasın. Bu gənclərin mütaliəyə cəlb olunmasına xidmət edir.

Bütün bunlar dünya təcrübəsində də var. Biz hər il, beynəlxalq kitab sərgisi keçiririk. 10 minlərlə insan şəhər kənarına kitab almaq üçün gedirsə, bu təbii ki kitaba maraqdan irəli gəlir. Artıq biz 7-ci dəfədir ki, bu sərgini keçiririk. Keçən ildən başlayaraq bu sərgilər regionlarda da təşkil olunur. Sumqayıt, Xırdalan, Gəncə və digər regionlar buna misaldır.

Kitabxanaların saytları var ki, burada yeni kitabların siyahıları verilib. Ölkəmiz 2 ildən artıq bir zamanda pandemiya şəraitində yaşadı. Lakin bu dönəmdə Milli Kitabxana 3 milyondan çox oxucuya xidmət etdi. Heç kim deyə bilməz ki, bu 2 il yarım müddətində Milli Kitabxana kiminsə bir sorğusunu cavablandırmadı. Biz çalışdıq ki, hamının sorğusunu ödəyək. Bütün bunlar hamısı ona yönəlir ki, təki insanlar oxusunlar. Biz hətta pandemiya dövründə də gəlib kitabları elektronlaşdırırdıq ki, oxucular faydalansınlar. Xüsusilə gənclər bir yerdən incidilərsə, onlar oraya qayıtmırlar. Ona görə biz çalışırıq ki, gəncləri incitməyək, onlara şərait yaradaq, onların nazı ilə oynayaq. Çünki oxumaq çox vacibdir. Əgər gələcəkdə zəngin ziyalı kimi yetişmək istəyirlərsə mütləq kitab oxumalıdırlar və onlara kömək etmək bizim borcumuzdur.

***- Deyirlər ki, uşaq evin güzgüsüdür. Uşaqların və gənclərin kitab oxumasında valideyn faktorunun nə kimi yeri var? Yəni, valideynin burada rolu nədən ibarətdir? Bəs, sizcə burada genetik faktorlar da rol oynayır?***

- Çox gözəl sualdır. Burada ən böyük faktor valideyndir. Ümumiyyətlə uşaq elə bilir ki, valideyn hamıdan güclü, savadlı və ağıllıdır. Uşaq da ondan örnək götürür. Əgər evdə valideyn uşağın yanında kitab oxuyursa və yaxud evdə kiçik bir kitabxana düzəldibsə əlbəttə o uşaq oxuyacaq. Əgər evdə uşaq görürsə ki, valideyn telefon və ya başqa boş işlərlə məşğuldur, təbii ki o uşaq da oxumayacaq. Azərbaycan xalqının həyatında örnək çox böyük rol oynayır. Ağsaqqala, böyüyə hörmət, onlardan nəysə qazanmaq bizim milli mentalitetimizin əsas amillərindən biridir. Bunu nəzərdən qaçırmaq olmaz. Ona görə də mən həmişə təklif edirəm ki, valideynlər beşik başından uşaqlara mütaliə öyrətsinlər. Ana beşik başındakı uşağa laylanı və nağılı kitabdan oxumalıdır. Biz fikir verməsək də o uşağın hafizəsində mütləq qalır. Bağçada da uşağa kitab oxudulmalı və məktəbdə də bu davam edilməlidir. Sistemli mütaliə olmalıdır. Uşağın yaş qrupuna, tədbir proqramına və sinifinə uyğun kitablar seçilməlidir. Bütün valideynlərə müraciət edirəm ki, evlərində kiçik də olsa kitabxana yaratsınlar. Uşaq da boş vaxtında kitabı görsün və ona maraq oyansın. Bizim yaşlı nəslin evlərində həmişə özlərinəməxsus kitabxanaları olardı. Onlardan nümunə götürmək lazımdır. Evdə kitab olmalıdır ki, uşaqda mütaliə vərdişləri yaransın.

***- İnsan kitab oxumağa neçə yaşından başlamalıdır?***

- Məncə insan kitab oxumağa ən azı 5 yaşından başlamalıdır. Lakin 2-3 yaşından valideyn şəkilli kitablarla uşağını mütaliəyə cəlb etməlidir.

***- Milli Kitabxanada gələcək illər üçün hər hansı yeni layihələr planlaşdırılır?***

- Layihələrimiz çoxdur. Qarabağla bağlı da layihələrimiz var və kitab toplamağa başlamışıq. Layihənin adı ”Qarabağa kitabla gedək”dir. Vətəndaşlar, təşkilatlar və məktəblər buraya kitab yollayır. Artıq 100 minə yaxın kitab yığılıb. Daha sonra ”Açıq Kitabxana” layihəsi var. Bu layihənin şəbəkəsini genişləndirmək fikrimiz var. Gələn il Milli Kitabxananın 100 illik yubileyi olacaq ki, bu münasibətlə də maraqlı planlarımız var. Həmçinin, ”Danışan kitablar” adlı bir layihəmiz var. Bu layihənin də artıq rüşeymləri var.

***- Kitabxananızda tələbələrə praktika keçilir? Onlara burada nələr öyrədilir?***

- Bəli. Milli Kitabxanada həm BDU-nun Kitabxanaçılıq və İnformasiya fakültəsinin, həm Slavyan və həm də ADU tələbələri 3-4 aydır ki, təcrübə keçir. Biz çalışırıq ki, onların kitabxanaya daha çox bələd olmasına nail olaq. Onlarda kitaba məhəbbət yaratmağa çalışırıq. Kitaba məhəbbət yaranan insan onu yaxınlarına təbliğ də edir.

***- Gənclərimizə kitablarla bağlı hansı tövsiyələriniz var?***

- Gənclərimiz kitabla dost olsunlar. Kitab oxuyan gənc intellektual cəhətdən inkişaf edir, hazırcavab olur və nitqi zənginləşdirir. Gələcək kitab oxuyan gənclərin əlindədir. Savadlı olmağın yolu kitabdan keçir. Kitabsız gələcək, savad və bilik yoxdur. Gənclər bunu başa düşməlidirlər.

*Ayşən Vəli*

# “Bu festival izləyən hər kəsə xüsusi zövq verir"

“Ali Baş Komandan İlham Əliyevin uğurlu siyasəti və yenilməz Azərbaycan əsgərinin gücü ilə 30 illik həsrətə son qoyuldu. İşğaldan azad olmuş torpaqlarımızda, o cümlədən Qarabağın incisi olan Şuşada təmir-bərpa işləri aparıldı”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Cavanşir Paşazadə bildirib. Onun sözlərinə görə, ölkə başçısı İlham Əliyevin sərəncamı ilə bu il ”Şuşa ili” elan edildi: ”Həmçinin Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır. Tədbirlərin, beynəlxalq görüşlərin bir hissəsi elə məhz Şuşada keçirilib. Şuşa Azərbaycanın simvoluna çevrilib. Şuşada V ”Xarıbülbül” festivalının keçirilməsi bir daha onu sübut edir ki, Azərbaycan öz torpaqlarını geri qaytardı. Bu festival onu göstərir ki, Azərbaycan həqiqətən də öz torpaqlarına əhəmiyyət verir. ”Xarıbülbül” beynəlxalq festivalında qardaş xalqların folklorları, yarışmaçıları iştirak ediblər. Bura dünyanın bir çox nümayəndələri gəlib və bu tədbirdə iştirak ediblər.




”Xarıbülbül” festivalının Şuşada, Cıdır düzündə keçirilməsinin böyük əhəmiyyəti var. Bu festival Şuşanı, Azərbaycanı bir daha dünyaya tanıtdı. Həmçinin bu festival Şuşanın gələcəkdə mühüm strateji bir şəhərə çevrilməsinə imkan yaradır. Cənab Prezident İlham Əliyev və Azərbaycanın birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da ”Xarıbülbül” festivalında iştirak etməsi onu göstərir ki, ölkə rəhbərliyi Şuşaya ciddi diqqət ayırır. Bu festival izləyən hər kəsə xüsusi zövq verir. Özümüz də Şuşada olarkən oradakı quruculuq işləri ilə yaxından tanış olduq. Gələcəkdə hələ belə tədbirlər çox keçiriləcək və bunların hər birinə şahidi olacağıq. Yaxın gələcəkdə xalqımız rahatlıqla Şuşa şəhərinə gedib oranı ziyarət edə biləcəklər”.

*Abutel İlhamqızı*

# “Bu mitinqlər mahiyyət etibarilə indiki siyasi xəttin dəyişməsinə təsir edə bilməz”



**“Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzi”nin rəhbəri, politoloq Samir Hümbətovun SİA-ya verdiyi müsahibəni təqdim edirik:**

***- Ermənsitanda aksiyalar neçə gündür davam edir. Bu aksiyalar iqtidarın siyasi kursuna təsiri edəcəkmi?***

- Ermənistanda aksiyaların keçirilməsi 19 aprel 2022-ci ildə Nikol Paşinyanın Moskvaya səfərindən sonra başlayıb. Hər gün mütəmadi şəkildə bu aksiyalar keçirilir. Aksiyaların həm gedişatına, həm də miqyasına baxdıqda bir qrup etirazçının etirazı daha çox diqqəti cəlb edir. Bu da Qarabağ klanının və Rusiyadakı bəzi dairələrə bağlı iştirakçılardan təşkil edilmiş aksiyalardır. Bu aksiyaların miqsası sadəcə paytaxt İrəvan daxilində məhdudlaşır. Aksiyalarda iştirak edənlər daha çox cavanlardır. Bu da onu göstərir ki, Qarabağ klanı gənc nəsli bu proseslərə cəlb etməyə çalışır. Düşümürəm ki, bu aksiyalar iqtidarın hakimiyyətdən devrilməsinə, Nikol Paşinyanın hakimiyyətdən getməsinə səbəb olsun. Güman ki, bəzi təzyiqlər göstərmək istəyirlər. Hətta Ermənistan hakimiyyətinə bağlı olan terrorçu dəstələrin bu proseslərə qatılmaması çox maraqlı tendensiyadır. Ümumilikdə bir terror qruplaşması olaraq bu qüvvələrə dəstək vermirlər. Paşinyanın siyasi kursu hətta bu terror qrupları üçün məqbul sayılır. Paşinyanın cəmiyyətə ötürdüyü mesajın arxasında duran səbəblər aydın şəkildə görsənir. Cəmiyyət də yavaş-yavaş buna razılıq verməyə başlayıb. Revanşist qüvvələr bu məsələdə geri addım atmaq istəmir. Bu mitinqlər mahiyyət etibarilə indiki siyasi xəttin dəyişməsinə təsir edə bilməz.

***- Ermənistanda baş verən aksiyaları dəstəkləyən qüvvələr kimlərdir? Bu aksiyaların arxasında kimlər dayanır?***

- Biz bu məsələdə Azərbaycan və Ermənistan arasında sülhün əldə olunmasını istəməyən qüvvələrin kim olduğunu bilməliyik. Həmin qüvvələrin marağı nədən ibarət olduğunu və sülh əldə olunarsa həmin qüvvələrə təsirin necə olacağını öyrənməliyik. Onu qeyd edim ki, həm Rusiyadakı, həm Ermənistanın özündəki, həm də Qərb ölkələrinin bəzilərindəki dairələr Azərbaycanla Ermənistan arasındakı sülhə maraqlı deyillər. Ona görə də zaman-zaman bu cür təxribatlar baş verir. Bütün bu təxribatlar onu göstərir ki, bu proseslərin ləngidilməsi bəzi qüvvələr üçün maraqlıdır. Onlar Ermənistanda qarşıqlığın olmasının istəmirlər. Sadəcə olaraq danışıqlar prosesinin ləngiməyini istəyirlər. Burada təkcə Azərbaycanla olan danışıqlar yox, həm də Türkiyə ilə olan danışıqlar söhbət gedir. Əgər Azərbaycanla Ermənistan arasında sülh danışıqları baş tutarsa və tərəflər ortaq bir nəticə əldə edərsə Qarabağda və regionda böyük bir dəyişiklik baş verə bilər.

***- "Qarabağda yaşayan ermənilərin Azərbaycanın tərkibində gələcəyi yoxdur" ifadəsi nə dərəcədə realdır?***

- Düşünmürəm ki, biz bu yanaşma ilə nəsə əldə edə bilmərik. Belə bir düşüncə də olmamalıdır. Hər bir xalqın keçmişində müharibə ola bilər. Misal olaraq demək istərdim ki, türklər və yunanlar arasında, ruslarla türklər arasında da zaman-zaman müharibələr olub. Bu müharibələr o demək deyil ki, bütün əlaqələri kəsmək lazımdır. Biz təzə müharibədən çıxmışıq. Bir müddət bu yaraların sağalması gözlənilir. Biz demirik ki, biz çox mehriban olacağıq. Ola bilsin ki, sadəcə yaxın ərazilərdə yaşayacağıq. Düşünürəm ki, vaxt keçdikcə tərəflər arasında gərginliklər azalacaq. Əgər digər ölkələrdə ermənilərlə rahat yaşamaq mümkündürsə deməli bu ərazilərdə də bu mümkün ola bilər. Əgər ermənilər yaşamaq istəsələr sakit bir şəkikdə yaşaya bilərik. Bizim millət humanist millətdir və hər şeyi nəzərə alır. Düşünürəm ki, onlar sakit yaşamağı qəbul edərlərsə dövlətimiz də, xalqımız da onlara köməklik göstərəcəklər.

***- Rusiya Ukraynanın bir sıra şəhərlərinə raketli hücum edib. Ümumiyyətlə bu müharibənin nə zaman bitəcəyi məlumdurmu? Müharibənin bitməsini istəməyən tərəflər kimdir?***

- Müharibənin gedişinə fikir versək görərik ki, burada 3 tərəf var. Döyüşən tərəflər, müharibənin bitməsini istəyən tərəflər və bu müharibənin bitməsini istəməyən tərəflər. Döyüşən tərəflər məlumdur. Müharibənin davam etməsini istəyən Qərb ölkələridir. Onlar istəyir ki, müharibə davam etsin. Qərb ölkələri ikitərəfli qazanc əldə edir. Rusiyaya qarşı təzyiqləri, sanksiyaları artırırlar. Həm də Rusiya iqtisadiyyatının sıradan çıxarmaq istəyirlər. Eyni zamanda Ukraynanı özlərinə doğru yaxınlaşdırmaq istəyirlər. Üçüncü tərəf isə müharibənin dayandırılmasını və proseslərin nəzarət altına alınmasını istəyən qüvvələrdir. Burada da əsasən Türkiyəni qeyd etmək olar. Türkiyə müharibənin danışıqlar yolu ilə həll edilməsinin tərəfdarıdır. Türkiyə həm Ukrayna ilə, həm də Rusiya ilə münasibətləri yaxşı olan dövlətdir və danışıqlarda həm də vasitəçi olmaq istəyirlər.

***Abutel İlhamqızı***



# YAP Qazax rayon təşkilatı Beynəlxalq Muzeylər Gününü qeyd edib

***Dünyada zəngin milli - mənəvi dəyərləri ilə tanınan xalqımız daim özünün mənəvi dəyərlərini qoruyub saxlayıb və ona ən qiymətli sərvəti kimi yanaşıb. SİA xəbər verir ki, mədəni irsin və milli - mənəvi dəyərlərinin qorunması dövlət siyasətinin əsas istiqamətlərindən biri olub.***



Bu sahədə görülən işlər cəmiyyətin mənəvi kamilləşməsində, milli - mənəvi dəyərlərə zidd olan təsirlərin qarşısının alınmasında böyük əhəmiyyət daşıyır. Hər il 18 may dünyada - Beynəlxalq Muzeylər Günü kimi qeyd olunur. Məhz, Mədəniyyət və Turizm Nazirliyinin tapşırığına əsasən "Beynəlxalq Muzeylər Günü" münasibəti ilə bu ilin 18, 19, 20 may tarixlərində muzeylərdə və qoruqlarda "Açıq Qapı" günü elan olunub.



18 may - Beynəlxalq Muzeylər Günü münasibəti ilə YAP Qazax rayon təşkilatı Aparatının işçiləri və fəallarıda Qazax Tarix - Diyarşünaslıq muzeyini ziyarət ediblər.

YAP Qazax rayon təşkilatının sədri Anar Nəbiyev bu məqsədlə çıxış edərək bildirib ki,Azərbaycanda milli-mənəvi dəyərlərimizə, o cümlədən muzey işinə daim dövlət qayğısı olub. Ölkəmizdə muzey işinin inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın milli tarixi və mədəni irsinin qorunmasında muzeylərin dəyərini dərindən və həssaslıqla duyan Ulu Öndər respublikada bu sahədə həyata keçirilən müvafiq tədbirlərin genişləndirilməsini, onun maddi-texniki bazasının gücləndirilməsini daim diqqət mərkəzində saxlayıb. Ulu Öndərimizin şəxsi təşəbbüsü ilə tarixi şəxsiyyətlərin memorial-xatirə, mənzil, bölgələrdə tarix-diyarşünaslıq muzeyləri yaradılıb.

Dahi rəhbərimizin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra digər sahələrlə yanaşı, muzey işi də öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Ulu Öndərin təşəbbüsü ilə 1993-cü ildə muzey işçilərinin respublika müşavirəsi keçirildi, 1994-cü ildə isə bu müşavirənin materialları əsasında "Respublikada muzey işinin vəziyyəti və onun yaxşılaşdırılması haqqında" qərar qəbul edildi. 2000-ci il martın 24-də qüvvəyə minmiş "Muzeylər haqqında" Azərbaycan Respublikasının Qanunu bilavasitə, ölkəmizdə muzeylərin fəaliyyətinin təşkilati-hüquqi əsaslarını və müvafiq münasibətlərini tənzimləyir. Bu sənədə əsasən Muzey - maddi mədəniyyət abidələrinin komplektləşdirilməsi, mühafizəsi, öyrənilməsi, kütləvi nümayişinin və təbliğinin həyata keçirildiyi mədəniyyət, elmi-tədqiqat müəssisəsidir.

Ümummilli Lider tərəfindən muzey işinin inkişafı üzrə müəyyən edilmiş siyasət bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyevin və ölkəmizin Birinci Xanımı Mehriban Əliyevanın rəhbərliyi altında fəaliyyət göstərən Heydər Əliyev Fondu tərəfindən uğurla davam etdirilir.

YAP Qazax rayon təşkilatının sədri Anar Nəbiyev Qazax Tarix - Diyarşünaslıq Muzeyinin yeni binasının məhz, 19 oktyabr 2016-cı ildə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin xeyir-duası ilə açıldığını xüsusi vurğuladı və bildirdi ki, bu muzey artıq şəhərimizə gələn qonaqların, rayon sakinlərinin tez - tez ziyarət etdikləri bir məkana çevrilib. Anar Nəbiyev onu da qeyd etdi ki, Yeni Azərbaycan Partiyasının proqramında mədəni irsin və milli - mənəvi dəyərlərin qorunması ilə bağlı xalqımızın tarixi, dili, ədəbiyyatı və mədəniyyətinin hərtərəfli şəkildə, dərindən öyrənilməsi, milli - mənəvi dəyərlərin inkişafında varislik prinsipinin qorunması, gənc nəslin milli - mənəvi dəyərlər ruhunda tərbiyə olunması, dünyada gedən qloballaşma prosesinin milli - mənəvi dəyərlərə mənfi təsirinin qarşısının alınması kimi hədəflər müəyyənləşdirilmişdir. Hər birimiz milli - mənəvi dəyərlərimizə, mədəni irsimizə ən qiymətli sərvətimiz kimi yanaşmalı, bunların qədrini bilməliyik!

Qazax Tarix - Diyarşunaslıq Muzeyində Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyətini əks etdirən fotolardan ibarət guşələrə, rayonun təbiətini və tarixini əks etdirən eksponatlara, təbiət, arxeologiya, qədim daş dövrü, orta əsrlər və "bəy evi" bölmələrinə baxış keçirilmiş, həmçinin muzeydə olan "Qazax xalça məktəbi", "Etnoqrafiya və folklor", "Qazax XIX-XXI əsrin əvvəllərində", "Səməd Vurğun", "Görkəmli şəxsiyyətlər", "1929-1990-cı illər", "Müasir dövr" və"Azərbaycan XXI əsrdə" bölmələri, Qazağın qədimdən bu günədək keçdiyi inkişaf yolu, təbiəti, mədəniyyəti, adət-ənənəsi, məişəti, tanınmış insanlarıhaqqında ziyarətçilərə ətraflı məlumat verilib.

# Əsl, yoxsa hiss etdiyin yaş mühümdür?



***Günümüzdə xüsusən də məşhurlar aləmində qadınlar özlərindən yaşca kiçik olan kişi ilə evlənirlər. Müsbət və mənfi cəhətlərinə görə kişi və qadın münasibətlərində yaş fərqi son illərdə ən çox müzakirə olunan məsələlər sırasındadır. Hər münasibətdə problemlər ola bilər, ancaq yaş fərqinin çox fərqli olduğu münasibətlərdə vəziyyət bir az fərqlidir. Türk psixoloqlar yaş fərqi çox olan cütlüklərin ümumi problemlərini izah edib.***

Cütlüklər böyük yaş fərqinə baxmayaraq bir-birlərini dəlicəsinə sevsələr də, onlar arasındakı yaş fərqi münasibətlərdə ciddi problemlər yarada bilər. Kişi və qadın bir-birlərinə aşiq olduqda, ayaqları yerdən kəsildiyi və gözləri heç nə görmədiyi üçün münasibətlərində hansı problemlərlə qarşılaşacaqlarını bilmirlər. Amma o ilkin həyəcan səngiməyə başlayanda və həqiqət yavaş-yavaş üzə çıxanda problemlər bir-birinin ardınca gəlməyə başlayır. Yaş fərqi böyük olan cütlüklərin ümumi problemlərinə nəzər salaq:

### Partnyorunuza qarşı səbirsiz olmayın

Əgər partnyorunuzdan daha yaşlısınızsa, partnyorunuzun uşaq davranışları, təcrübələri və hətta söhbətləri sizi əsəbiləşdirə bilər. Çünki onun indi keçdiyi mərhələləri siz artıq keçmisiniz. Bu səbəblə onun öyrəndiyiniz və yaşadığınız davranışları təkrarlamasını izləmək sizi və məsləhət alan partnyorunuzu olduqca qıcıqlandıracaq. Bu, tək bir məsələdə baş verməyəcəyi üçün mübahisələr get-gedə arta bilər.

### Maddi cəhətdən partnyorunuzdan daha yaxşı vəziyyətdə olmaq

Yaşı çox olan tərəfdaşın maddi cəhətdən yüksək olması ehtimalı var. Hər zaman pul xərcləyən sizsinizsə, bir müddət sonra əsəbləşə və maliyyə xərclərini qarşıladığınız üçün qərarları özünüz vermək istəyə bilərsiniz. Partnyorunuz bunu ədalətli saymaya bilər. Bu məqamda da fikir ayrılıqlarının yaranması an məsələsidir.

### Tərəfdaşla ana və ya ata kimi davranmaq

Əgər partnyorunuzla 10 ildən çox təcrübəniz varsa, ona nəsihət vermək, səhvlərini düzəltməyə çalışmaq və ya ona yol göstərmək bir müddət sonra həm sizin, həm də partnyorunuz üçün olduqca dözülməz hala gələcək. Siz bu proseslərdən keçmisiniz və nə ilə məşğul olacağınızı bilirsiniz və kömək etmək istəyirsiniz, amma tərəfdaşınız sizinlə eyni fikirdədirmi? Unutmayın, partnyorunuzla uşaq kimi davranmağa başlamaq münasibətinizin sonu ola bilər.

### Yaş fərqinə görə son sözü demək istəyində olmaq

Yaşınızdan qaynaqlanan hökmranlıq səbəbinə görə son sözü siz demək istəyə bilərsiniz. Daha çox pulunuz və təcrübəniz olduğu üçün münasibətlərinizə ağırlıq vermək istədiyiniz. Bu da qarşı tərəf üçün xoşagəlməz olacaq.

### Zamanla cinsi cəhətdən yetərsiz olmaq qorxusu

Əgər yaşınız böyükdürsə, zaman keçdikcə gənc partnyorunuz üçün cinsi cəhətdən yetərsiz olacağınızdan narahat ola bilərsiniz.

### Sosial gərginlik yaşamaq

Əgər partnyorunuzdan yaşlı bir qadınsınızsa, sosial vəziyyətlərdə gözünüzün onun üzərində olması yaşayacağınız problemlərdən biridir.

### Cinsi həyat müddəti

Yaş fərqinə görə yaşana biləcək ən əhəmiyyətli problemlərdən biri də cütlüklər arasında cinsi əlaqədir. Kişilərin andropoz zamanı və sonrasında uşaq sahibi olması mümkün olsa da, qadınların menopozdan sonra uşaq sahibi olması mümkün deyil. Bu, münasibətlərdə ciddi mübahisələrə səbəb ola bilər.

Münasibətlərdə qadın-kişi arasında yaş fərqi necə olmalıdır? Kişinin yaşca qadından kiçik olması hansı problemlərə səbəb ola bilər? Məsələnin tibbi yanlarında problem yaşana bilər? Dünyada və Azərbaycanda vəziyyət necədir? SİA məsələ ilə bağlı araşdırma apararaq psixoloq, sosioloq və həkimlərin fikirlərini öyrənib.

**Psixoloq Leyla Əli:** ”Sevgi elə hissdir ki, bu hissi yaşayanda tərəflər bir-birinin sənəd üzərindəki yaşına baxmır. Adətən, münasibətlərdə kişinin qadından 5-6 yaş kiçik olduğunu görürük. Amma təcrübə göstərir ki, yaşı eyni olan cütlüklərin münasibətləri və evliliyi daha uzunmüddətli olur.





Araşdırmalara görə cütlüklər arasındakı yaş fərqi ər və arvadın ömrünün uzun və qısa müddətli olmasına səbəb olur. Müxtəlif yaş dövrlərindən olan evliliklərdə, məsələn, qadın kişidən yaşca böyük olarsa hər iki tərəfin ömrü qısalır. Bundan əlavə, münasibətlərin rifahına ictimai rəy, ortaq və qeyri-qanuni uşaqların olması, sosial status, psixoemosianal amillər təsir göstərir”.

**Cərrah, mama-ginekoloq Ləman Əliyeva:** ”Qadın və kişi arasındakı yaş fərqi önəmli faktor deyil. Sadəcə, yaş fərqi irəliləyən yaşlarda qadın hamilə qalanda uşağın xəstə doğulması riski olur. Bu, əsasən, genetik xəstəliklər varsa baş verir. Bu problemlər həm qadın, həm də kişi tərəfdə ola bilər. 40 yaşın üzəri qadınlarda və 50-nin üzərində kişilərdə belə faktorların meydana çıxma riski daha yüksək olur.





Azyaşlılarda da bu problem baş verir. Bu, həm yaşı az olan kişiyə, həm də qadına aiddir. Qadın və kişi orqanizminin hamısının öz yetişmə mərhələri var”.

***Ayşən Vəli***

# Azərbaycan Ordusu Qaraliksənin həndəvərində!

## *Erməni KİV-ləri isterikada!*





### "Hraparak": "Artıq bir ildən çoxdur ki, azərbaycanlılar Qaragöl istiqamətində irəliləyiblər və uzaqlaşmırlar"

Ermənistanın "Hraparak" nəşri Azərbaycan Ordusunun fəaliyyəti ətrafında növbəti isterik məqalə ilə çıxış edib. Əsasən, ölkənin baş naziri Nikol Paşinyanın və onun hökumətinin fəaliyyətini hədəfə alan erməni nəşri iddia edir ki, Azərbaycanın Silahlı Qüvvələri Qarakilsə (ermənilər Vanadzor adlandırırlar) istiqamətində mövqelərini möhkəmləndirməklə yanaşı, bu tarixi məkanın demək olar ki, həndəvərində dayanıb.

Eyni zamanda, adıçəkilən qəzet Nikol Paşinyanın hələ növbədənkənar seçkilərdən əvvəl səsləndirdiyi bəyanatını da xatırladıb. "Ermənistan hakimiyyəti seçkiqabağı dövrdə Nikol Paşinyanın elan etdiyi kimi, Qaragölün 30%-nə görə müharibə elan etməmək yox, həm də azərbaycanlılara mane olmaq fikrində deyil", "Hraparak" erməni baş nazirinin sözlərini xatırladır.

### Erməni nəşri: "Göle yaxın yaşayış məntəqələrindən bizə bildirilib ki, mövqelərdə növbətçi əsgərlərimizin sayı azalıb"

İsterik məqalə ilə çıxış edən adıçəkilən nəşrin iddiasına görə, diqqət çəkən daha bir məqam budur ki, Ermənistan ordusu canlı qüvvə sarıdan qıtlıq çəkir və mövqelərə lazımi qədər əsgərlər yerləşdirə bilmir. Üstəlik, dayaq nöqtələrinin məsafə uzaqlıqları bu ərazilərə məhz Azərbaycan Silahlı Qüvvələrinin daha çox nəzarət etməsinə kifayət qədər şəraitlər yaradıb. "Gölə yaxın yaşayış məntəqələrindən bizə bildirilib ki, mövqelərdə növbətçi əsgərlərimizin sayı azalıb, mövqelər bir-birindən kifayət qədər uzaqdadır və rəqib istəsə, mövcud sərhədi keçə və hətta Qarakilsəyə çata bilər", "Hraparak" təlaşını gizlədə bilməyib.

Qeyd edək ki, ötən il mayın 12-də Azərbaycan Silahlı Qüvvələri düz xətlə Gorusdan təxminən 15 km məsafədə yerləşən Qaragöl istiqamətinə doğru irəliləyiblər və faktiki olaraq gölün ətrafında nəzarət müəyyənləşdirərək onu demək olar ki, tam şəkildə mühasirəyə alıblar.

### Erməni isterikası: "Azərbaycanlılar Qaragölün ətrafında mövqelər, yollar salıblar"

Erməni KİV-ləri bununla bağlı "Google Earth"də yenilənmiş peyk fotoşəkilləri də nümayiş etdiriblər və həmin fotolardan da müəyyən etmək olar ki, Azərbaycan Silahlı Qüvvələrinin bölmələri sözügedən ərazilərdə sarsılmaz mövqelərə sahibdirlər, üstəlik yüksək keyfiyyətli və ən müasir standartlara cavab verən infrastrukturlar da inşa edilib.

Eyniadlı nəşr bununla da bağlı çıxış etdiyi başqa bir məqaləsində yazır: "Xüsusilə də azərbaycanlılar Qaragölün ətrafında mövqelər, yollar salıblar.

Ötən il mayın 12-də Baş nazir Nikol Paşinyan Təhlükəsizlik Şurasının növbədənkənar sessiyasında Azərbaycan Silahlı Qüvvələrinin Qaragöl və onun ətrafında 3,5 km-ə qədər irəlilədiyini bəyan edib. Lakin düz bir il keçib və Qaragöl ərazisində vəziyyət eyni olaraq qalmaqda davam edir".

Erməni müəllif yazır ki, azərbaycanlılar ərazini daimi şəkildə mühasirəyə alıblar və üç yerdə dayanıblar. Eyni zamanda, Xəznivar icmasının keçmiş rəhbəri Varo Qriqoryan nəşrə açıqlamasında mövcud vəziyyətə toxunaraq vurğulayıb ki, həmin vaxtdan etibarən situasiya eyni olaraq qalmağa davam edir və Azərbaycan Ordusu bu ərazilərə nəzarətini artırır.

***Rövşən RƏSULOV***

# ""5-ci kolon" təmsilçilərinin hərəkətlərini istiqamətləndirən bəlli qlobal maliyyə mərkəzləri var"



"Sərbəst toplaşmaq hüququ Azərbaycan qanunvericiliyində insan hüquqları kateqoriyasına aid edilən mühüm hüquqlardan biridir. Bütün dünyada "Covid-19" pandemiyası ilə bağlı hökumətlər insanların sağlamlığı və təhlükəsizliyi ilə bağlı amillərdən irəli gələrək bu sahədə bir sıra məhdudiyyətlər tətbiq etmişdilər. Pandemiya ilə bağlı yumşaldılma tədbirlərindən sonra ayrı-ayrı ölkələrdə olduğu kimi, müəyyən siyasi dairələrin dirçələcəyi gözlənilən idi, lakin bu dirçəlişin arxasında ölkə daxilində "5-ci kolon" təmsilçilərinin, habelə onların hərəkətlərini istiqamətləndirən və koordinasiya edən bəlli qlobal maliyyə mərkəzlərinin də olması anlaşılan və izah olunandır".

Bunu "Səs" qəzetinə açıqlamasında MDHP sədr müavini, politoloq Elşən Manafov deyib. Onun sözlərinə görə, Qarabağ uğrunda mücadilədə qalib gəlməyimizdən sonra bölgədəki yeni geosiyasi reallıqları nə Qərbdəki "həmkarlarımız", nə də müharibədəki məğlubiyyət acısının əvəzini çıxmaq, revanş götürmək cəhdlərində bulunan ermənilər qəbul edə bilmirlər: "İctimai rəyi azdırmaq, konsolidasiya olunmuş cəmiyyəti parçalamaq məqsədi ilə onlar mövcud iqtidara qarşı birbaşa siyasi mübarizə sularının ilə deyil, cəmiyyətimizdə qadın hüquqlarının pozulması, guya qadınlara qarşı şiddət və mərkəzin yüksəlməsi pərdəsi altında aparmağa çalışırlar. Azərbaycanda ana və qadına münasibətin kifayət qədər həssas olmasının mahiyyətinə varan bu qüvvələr, məhz bu sahədə problemlərin yüksələn xətlə artdığını guya ki, iqtidarın bu sahədə həyata keçirdiyi siyasətlə əlaqələndirə, vəziyyət isə tamamilə bunun tərsinin olduğunu söyləməyə əsas verir. Bu gün ölkədə təhsil sahəsində çalışanların təxminən 72%-ni, səhiyyədə 58% qadınlar təşkil edirlər. Ölkənin 1-ci vitse prezidenti, parlamentin spikeri qadındır, millət vəkillərinin təxminən 21% qadındır, ali təhsilli qızlarımızın sayı durmadan artır, qadınlar artıq ölkənin təkcə humanitar sahələrində deyil, güc strukturlarında, ədliyyə və məhkəmə sistemində çəkişməkdədirlər. Təəssüf ki, dövlət səviyyəsində həyata keçirilən tədbirlərə, maarifçilik, təbliğat işlərinin aparılmasına baxmayaraq ayrı-ayrı ailələrdə qadın və qızlara qarşı şiddət, onlara yuxarıdan aşağıya baxmaq kimi hallar qalmaqdadır, lakin bunlar bizim cəmiyyətimiz üçün xarakterik deyil, bu sahədə mövcud problemləri təkcə inzibatçılıq, qanunvericilik yolu ilə qaldırmaq mümkün deyil, sivil ölkələrdə olduğu kimi, doğuma nəzarət və qadınların təhsil səviyyələrinin artması yolu ilə feministlərin qaldırdığı tələbləri tədricən həll etmək mümkündür. Bu aksiyalarda isə əsas məqsəd "5-ci kolon"un vasitəsilə iqtidarın müstəqil siyasətinə təzyiq göstərmək, onu təhdid etmək, bəlli dairələri həyata keçirmək istədikləri ssenarini dövlətçiliyimizə qəbul etdirməkdir".

***Gülyana***



Elçin Bayramlı

# Oxu(t)muram, əl çəkin!

***Son illərdə ali məktəblərə qəbul üçün keçid ballarına baxanda bişmiş toyuğun gülməyi gəlir. 200-300 balla ali məktəbə qəbul olunur. Bu da o deməkdir ki, ali məktəbə daxil olan tələbə 5 ballı sistem üzrə 1 və 2 qiymətlərlə imtahandan keçmiş olur! Hələ bunlar orta təhsilin seçilmişləri, savadlıları, özünə inananlarıdır. Konkret desək, orta təhsil sıradan çıxmışdır!***

İndi keçək bunun səbəblərinə. Niyə təhsildə getdikdə tənəzzül baş verir? Əvvəla, başlayaq bir az uzaqdan- Sovet İttifaqının dağılmasından. 90-cı illərin əvvəllərində ölkədə iqtisadi, sosial böhranlar başladı, işsizlik tüğyan etdi, hiperinflyasiya baş verdi. Ali təhsil almış kadrlar 5-10 manat gülünc maaşa işləyərkən təhsilsizlər alverə, sex açmağa filana girişərək varlandılar. Nəticədə əhalidə təhsilə maraq azaldı.

Üstəlik, regionlarda yaşayan insanların gəlirləri azaldığından Bakıda uşaq saxlamaq və oxutmaq əksəriyyət üçün əlçatmaz oldu. Dünyanın ən bahalı şəhərlərinin biri olan Bakıda tələbənin yaşayış, yemək, nəqliyyat və digər xərclərini ödəməyə heç valideynlərin bütün əməkhaqqı belə çatmazdı. Sovet dövründə tələbələrin yaşadığı yataqxanalar artıq qaçqınlar və köçkünlər tərəfindən tutulduğundan tələbə valideyninin bütün maaşını kirayəyə verməli idi.

Sonralar iqtisadi, sosial vəziyyət nisbətən yaxşılaşmağa başladı, amma yenə də ali təhsil bütün ailələr üçün əlçatan deyildi. Üstəlik, dövlət ali təhsil müəssisələri getdikdə pullu təhsil hissəsini artırırlar və pulsuz təhsil yerləri azalır.

Hər halda indi orta məktəbdə normal təhsil almaq üçün hər cür şərait var. Bəs müəllimlər niyə məktəblilərə normal təhsil vermək-də maraqlı deyillər? Çünki keçmiş təhsil naziri Misir Mərdanovun dediyi kimi, minimum əməkhaqqı məbləğində alan müəllim dərs keçməkdə maraqlı ola bilməz. Onun fikri evində olan çoxsaylı problemləri bu cüzi maaşla necə həll edəcəyidir. Ona görə də, dərsi başdansovdu yola verib evinə tələsir ki, bir az istirahət edib, axşam repetitorluqla 5-10 manat əlavə pul qazansın ki, ailəsi acından ölməsin. Ali məktəblərə orta və yuxarı balla qəbul olanların çoxu isə məktəblrin yox repetitorların, hazırlıq kurslarının əsəridir. Məktəb sadəcə formal olaraq mövcuddur.

Bəs uşaqlar niyə məktəbdə təhsil almaqda maraqlı deyillər? Burda çoxsaylı səbəblər var. Kənd yerlərində uşaqlar təsərrüfat işlərində valideynlərinə kömək etməyə məcburdurlar. Əks halda dilənçi vəziyyətinə düşərlər. Ona görə də, tədris ilinin çox hissəsini məktəbə gəlmirlər, gələndə də, dərslik halları qalmır.

Şəhərlərdə uşaqlar vaxtlarını internetdə, mobil telefonlarda min oyundan çıxmaqda, televiziyanın qabağında keçirməkdə daha çox maraqlıdırlar. Valideynlərin çoxu uşaqlarına mütləq azadlıq verib.

Uşaq da əyləncəni qoyub dərsi niyə oxusun ki? Ağzında uşaq deyirsən. O nə bilir ki, bu gələcəkdə ona hansı problemlər yaradacaq? Axı hələ ki, hər şey müftə gəlir, atası bahalı telefon, kompüter alır, "məktəbi bitirən kimi sənə maşın alacam" deyə söz verir, anası seriala baxmaqdan vaxt tapıb ona həyatı başa salmır, yalnız uşağın az yemək yediyindən narahat olur.

Orta təhsil sistemi iflasa uğramasının səbəblərini təkcə Təhsil Nazirliyində axtarmaq lazım deyil, həm də valideynlərin özlərində axtarmaq lazımdır. Hər halda, bu ölkədə tam orta təhsil pulsuzdur, dərslikləri pulsuz verilir, məktəblər zəruri ləvazimat və avadanlıqlarla təmin edilir.

O zaman valideyni ağıllı olan, özü isə təhsil almaq istəyən uşaq savadsız ola bilməz. Hər şey dərsliklərdə yazılıb, bilmədiyini isə müəllimdən soruşmaq olar. Məncə, məsuliyyətin çox böyük hissəsi birbaşa valideynlərin üzərinə düşür.

Valideynlərin çoxu uşağın həqiqi bilik əldə etməsinə deyil, diplom almasına çalışır. Başa düşmür ki, amansız kapitalizm şəraitində uşağın əlindəki o kağız parçası ona kömək olmayacaq, işəgötürənlərə bacarıqlı, savadlı kadrlar lazımdır. Beləde həmin diplomlular ordusunun çoxu işsiz qalır, ya da ən yaxşı halda hardasa fəhləlik, sürücülük, satıcı işi tapırlar.

Göründüyü kimi, təhsilimizin bərbad gündə olması üçün çoxsaylı səbəblər var. Nə qədər ki, təhlil sisteminin başında fasiləsiz və nəticəsiz eksperimentlər aparılır, nə qədər ki, cəmiyyət olaraq təfəkkürümüz, gələcəyə baxışımız dəyişməyib, bu problem həll olunmayacaq.

1-2 qiymətlə universitetə daxil olub, orada 4 il vaxt itirib, bir "kağız parçası" ilə çıxmaqdansa, uşaqları yönəldin peşə məktəblərinə, kurslarına, imkan verin bir sənət, peşə öyrənib həyatda öz bacarıqlarını realizə etsinlər. Bununla özlərinə və cəmiyyətə daha faydalı olarlar.



*"İrəvan bu məsələni manipulyasiya etməkdə, Fransa və ABŞ-ı köməyə təhrik etməkdə davam edir. Amma sonda bunun işə yarayacağını demək olmaz"*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış" istiqaməti çərçivəsində hazırlanıb.***

# Rusiyalı ekspertlər: “Ermənistan Bakının təklifləri ilə razılaşmalı olacaq”

Ermənistan mətbuatı rəsmi İrəvanın Azərbaycana təklif etdiyi 6 bəndi dərc edib. Bu, Ermənistan tərəfinin fikrincə, iki ölkə arasında sülh sazişində qeyd edilməli olan məqamlardır. Ermənistan tərəfinin sülh müqaviləsi ilə bağlı təkliflərini Ermənistanın xüsusi tapşırıqlar üzrə səfiri Edmon Marukyan açıqlayıb. Belə ki, 1-ci abzasda martın 11-də Ermənistan tərəfinin Azərbaycandan müqavilə ilə bağlı təklif alması faktı göstərilir. 2-ci məqama görə, Ermənistanın heç vaxt Azərbaycana qarşı ərazi iddiası olmayıb və yoxdur.

3-cü məqam Qarabağın qondarma statusu məsələsini yenidən gündəmə gətirir. Orada bildirilir ki, erməni tərəfi üçün Qarabağ ermənilərinin təhlükəsizliyinin təmin edilməsi, onların hüquq və azadlıqlarına hörmət edilməsi, eləcə də Dağlıq Qarabağın yekun statusunun müəyyən edilməsi məsələləri prinsipial əhəmiyyət kəsb edir.

4-cü abzasda vurğulanır ki, erməni tərəfi Azərbaycan Prezidentinin, Ermənistan Respublikasının Baş nazirinin, Rusiya Federasiyası Prezidentinin 9 noyabr 2020-ci il tarixli bəyanatını və bəyanatlarında göstərilən öhdəliklərin yerinə yetirilməsini vacib hesab edir. (11 yanvar və 26 noyabr bəyanatlarından sitat gətirilir- müharibə əsirlərinin qaytarılması, nəqliyyat kommunikasiyalarının açılması).

5-ci bəndə əsasən, Ermənistan tərəfi BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və Beynəlxalq Mülki-Siyasi Pakt əsasında Azərbaycan və Ermənistan arasında dövlətlərarası münasibətlərin qurulmasına dair sülh müqaviləsi üzrə danışıqlara başlamağa hazırdır.

Yekun- 6-cı bənddə isə Ermənistan bildirir ki, müvafiq danışıqları təşkil etmək üçün Ermənistan tərəfi ATƏT-in Minsk qrupunun həmsədrlərinə müraciət edib.

Xatırladaq ki, mart ayında Azərbaycan Xarici İşlər Nazirliyi İrəvana sülh sazişi üçün 5 bənddən ibarət yenilənmiş təkliflər göndərdiyini, o cümlədən suverenliyin qarşılıqlı tanınması, ərazi iddialarının olmaması, təhlükəsizlik təhdidlərinin rədd edilməsi, sərhədin delimitasiyası və demarkasiyası, habelə nəqliyyat kommunikasiyalarının açılması. Nəticədə Azərbaycan prezidenti İlham Əliyev Ermənistan tərəfinin bu məqamları qəbul etdiyini bəyan edib. Eyni zamanda Ermənistanın baş naziri Nikol Paşinyan da bu faktı təsdiqləyib.

Əlavə edirik ki, Azərbaycan və Ermənistan liderləri aprelin 6-da Brüssel görüşündən sonra Avropa Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə iki ölkənin xarici işlər nazirlərinə sülh müqaviləsi hazırlamağı tapşırıblar. Azərbaycan prezidenti İlham Əliyev bir müddət əvvəl bildirib ki, sülh sazişi üzrə işçi qrupların tərkibi artıq həm Azərbaycan, həm də Ermənistan tərəfdən formalaşıb. Qeyd edək ki, Rusiya sülh sənədi üzrə danışıqlar məsələsində tərəflərə kömək etməyə hazır olduğunu dəfələrlə vurğulayıb.

Ekspertlər "Moskva-Baku" portalına sülh müqaviləsi ilə bağlı İrəvanın və Bakının qarşılıqlı təkliflərini şərh edirlər. Rəyləri oxucularımıza təqdim edirik.

### Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov:



- Aydındır ki, Ermənistan Bakının sülh müqaviləsi ilə bağlı təkliflərini dərhal qəbul edib, razılaşa bilməz. Bunu hamı yaxşı bilir- həm erməni mentaliteti baxımından- bazarlıq etmək lazımdır, həm də daxili siyasi vəziyyət baxımından - biz hamımız İrəvanda baş verənləri müşahidə edirik. Bakının təklif etdiyi hər şeyi Paşinyan sadəcə bacarmır. Mən bu vəziyyəti, bir tərəfdən, gecikmə kimi qiymətləndirərdim. Ermənistanın baş naziri İrəvandakı indiki vəziyyəti sakitləşdirməli, digər tərəfdən, İrəvan Azərbaycanla sövdələşməyə getməlidir.

Təbii ki, Helsinki Yekun Aktı ilə bağlı İrəvanın təklif etdiyi 6 bənd haqda danışmaq heç nə demək deyil. Hər kəs yaxşı bilir ki, Ermənistan özü Azərbaycan ərazilərini işğal etməklə bu aktın prinsiplərini pozub və indi vaxtaşırı bu aktın "gücdən istifadə etməmək", "xalqların öz müqəddəratını təyinetmə" prinsiplərinə istinad edir. Aydındır ki, bunlar İrəvanın manipulyasiyaları və sülh sazişinin hazırlanmasında "təxribat pəncərələri"ndən istifadədir və erməni tərəfi gələcəkdə bundan istifadə etmək niyyətindədir.

Qarabağın statusu və orada yaşayan ermənilərin hüquqları ilə bağlı bəndə gəlincə, bu, Ermənistan tərəfindən daha ciddi, konstruktiv məsələdir və İrəvanın müzakirə etmək istədiyi məsələdir. Amma bütün bunlara baxmayaraq, biz bu istiqamətdə Ermənistanın mövqeyində irəliləyiş görürük. İrəvan çoxdan Qarabağın Ermənistan olduğunu müdafiə etməyi dayandırıb, o, Qarabağın müstəqil "dövlət" olmasını da tələb etmir. Ermənistan yavaş-yavaş normal sivil yolla, məntiqlə irəliləyir ki, Qarabağdakı vəziyyətlə bağlı məsələ Azərbaycanın daxili məsələsidir və beynəlxalq hüquq normaları çərçivəsində həll olunacaq. Qarabağ məsələsində hərəkət var, amma indi həqiqətən də Paşinyan üçün çətin məqamdır və ona ölkədəki daxili siyasi vəziyyət baxımından vaxt udmaq lazımdır.

Paşinyan yavaş-yavaş Qarabağın Azərbaycanın olduğuna razılaşdığını bütün dünyaya göstərir. O, Bakıda tam hüquqlu sülh müqaviləsinin imzalanmasına doğru irəliləyir, aydındır ki, İrəvanın mövqeyi Bakının xeyrinə dəyişir.

Ermənistanın ATƏT-in Minsk Qrupu ilə bağlı təkliflərinə gəldikdə, biz yaxşı bilirik ki, qrup işləmir və görünür, bir daha işləməyəcək. Necə deyərlər, eyni uğurla İrəvan Millətlər Liqasına müraciət edə bilər. Əslində, təkliflərin bu bəndi də heç nədən ibarətdir.

Əsas məsələ Paşinyanın ölkə daxilində bu gün kəskin olan vəziyyəti nə qədər tez həll edəcəyidir. Bundan sonra o, Azərbaycanla sülh sazişinin bağlanmasına doğru mərhələli şəkildə hərəkət etmək imkanı əldə edəcək.

Hər halda, fikrimcə, Qarabağın statusu məsələsi Azərbaycanın xeyrinə həll olunacaq. Bu, prinsipcə Moskvaya uyğun gəlir. Anladığımıza görə, rəsmi Bakı sülh müqaviləsi ilə bağlı erməni prinsiplərinə cavab verərək, Qarabağın statusu məsələsinin müzakirəsinin qəbuledilməz olduğunu açıqlayıb.

### Politoloq, millətlərarası münaqişələr üzrə ekspert Yevgeni Mixaylov:



- Fikrimcə, İrəvan yenə də Azərbaycanla münasibətlərin normallaşdırılmasında özü üçün "imkan pəncərələri" saxlamağa çalışır. Axı sülh müqaviləsinə həmişə əks istiqamətdə baxmaq olar. Mövcud məqamlar arasında İrəvanın irəli sürdüyü prinsiplərin - Qarabağın və orada yaşayan ermənilərin qondarma statusunun mənasızlığını dərk edərək Azərbaycanın sadəcə olaraq sazişin imzalanmasına razılıq verməməsinə yönəlmiş erməni "hiylələri" az deyil. Eyni zamanda, Qarabağın Azərbaycan olduğu və bu ərazidə yaşayan ermənilərin Azərbaycan vətəndaşları olduğu faktı qalır. Ermənistanda kimin nə deməsindən asılı olmayaraq, bu, dəyişməzdir. Ən yaxşı halda Qarabağda, yenə Azərbaycanın daxilində mədəni muxtariyyət yaradıla bilər. Və indiki şəraitdə ATƏT-in Minsk Qrupu ilə bağlı "hiylələr" heç də işə yaramır. Rusiyanın xarici işlər naziri Sergey Lavrov qruplaşmanın dağıldığını açıq şəkildə bəyan edib. Aydındır ki, İrəvan bu məsələni manipulyasiya etməkdə, Fransa və ABŞ-ı köməyə təhrik etməkdə davam edir. Amma sonda bunun işə yarayacağını düşünmürəm.

Rusiya Ermənistan-Azərbaycan nizamlanmasında həmişə əsas vasitəçi olub və belədir, Qərb dövlətləri faktiki olaraq Moskvanın düşməninə çevrilib. Qarabağ nizamlanması ilə bağlı hansı qarşılıqlı fəaliyyət müzakirə oluna bilər? Bu mümkün deyil.

Rusiyanın Ukrayna ilə bağlı apardığı əməliyyat fonunda Ermənistanın sülh müqaviləsi üzrə danışıqlar prosesinə Qərb dövlətlərini cəlb edərək eyni vaxtda bir neçə kürsüdə əyləşməyə çalışması tamamilə açıq-aşkardır. Azərbaycanla Ermənistan arasında sülhə doğru hərəkətin sürəti həm də Ukrayna ilə bağlı vəziyyətin necə bitməsindən asılı olacaq.

Yeri gəlmişkən, İrəvanın ATƏT-lə bağlı bütün düsturları, Qarabağın statusu məsələsi qondarma "təhlükəli pəncərələr"dir ki, Ermənistan müqavilənin imzalanmaması üçün Bakının üstünə atır.

***Tərcümə - Elçin Bayramlı***

# Genetikdən xəbərdarlıq: elektrik çaydanlar ÖLÜM SAÇIR!



***Rusiyalı genetik mütəxəssis Yevgeni Patkin plastik elektrik çaydanların zərərlərini açıqlayıb. ublika.az xəbər verir ki, alimlər hamilə qadının qəbul etdiyi az miqdarda zəhərin uşağın sağlamlığına necə təsir etdiyinə dair bir sıra təcrübələr aparıb.***

Eksperimental Tibb İnstitutunun molekulyar sitogenetik laboratoriyasının müdiri, elmi qrupun rəhbəri - Yevgeni Patkinin dediyinə görə, döl epigenetik dəyişikliklərə məruz qalır ki, bu da özünü yetkin yaşda ciddi xəstəlik kimi göstərə bilər.

Alimlər ətraf mühitdən az miqdarda bədənə daxil olan toksinlərin nəticədə ciddi sağlamlıq problemlərinə səbəb ola biləcək proseslərə təkan verəcəyini sübut edib. Üstəlik, zəhər uşağın orqanizminə ana bətnində olarkən daxil olarsa, insan kifayət qədər yetkin yaşda da xəstələnə bilər. Patkin həmin maddələri açıqlayıb:

”Epigenetik dəyişikliklərin baş verməsi üçün bədənin güclü təsirə məruz qalmasına ehtiyac yoxdur - məsələn, ağır metalların olduğu yeməklər, və ya az miqdarda bisfenol olan plastik su şüşələri kifayətdir. Rəsmi olaraq zəhərin tərkibi sanitar norma daxilində olacaq - mutasiyaya səbəb olmayacaq, amma epigenetik dəyişikliklər mütləq baş verəcək. Yeri gəlmişkən, bisfenol isidildiyi zaman daha fəal buraxılır. Odur ki, plastik elektrik çaydanları atmaq və uşaq yeməyini plastik şüşələrdə qızdırmamaq lazımdır”.

Genetik eyni zamanda vurğulayıb ki, hamilələrin sağlamlığı mühümdür. O, əlavə edib ki, kişinin spermatogenezi ömrü boyu davam edir. Əgər zəhər və ya şüalanmaya məruz qalsa, bir müddət sonra sperması təmizlənəcək. Qadının bütün yumurtalıqları zərər görərsə, əbədi olaraq belə qalacaqlar. Alimlərin fikrincə, embrional dövr həlledici rol oynayır. Mütəxəssislər xəstəliklərin əsasən DNT-dəki epigenetik dəyişikliklərlə əlaqəli olduğunu düşünür. Elmdə yeni bir istiqamət ortaya çıxıb - (utero inkişaf etmiş) ”yetkin” xəstəliklərin fetal səbəblərinin araşdırılması. Həkimlər xəstəliklərin epigenetik mexanizmlərini başa düşdükdən sonra yeni effektiv müalicə üsullarının tapılacağını gözləyirlər.

# 1-ci sinfə qəbul qaydaları NECƏDİR?

***“Hazırda 1-ci sinfə qəbul prosesi başlayıb və valideynlərin diqqət etməli olduğu bəzi məqamlar var. Birinci sinifə qəbul qaydaları Təhsil Nazirliyinin bütün informasiya resurslarında öz əksini tapıb. Bununla bağlı məlumatları nazirliyin informasiya resurslarından da əldə etmək olar". Bu sözləri SİA-ya açıqlamasında təhsil üzrə ekspert İlqar Orucov bildirib.***



Onun sözlərinə görə, birinci sinfə qəbul qaydaları hesab edirəm ki, bütövlükdə xeyli təkmilləşdirilib: ”Təhsil Nazirliyinin müvafiq portalı üzərindən bu proses həyata keçirilir. Valideyn birinci sinfə gedəcək övladının məlumatlarını sistemə daxil edir. Sistemə daxil edərkən ilk növbədə ərazi üzrə məktəb seçimi aparılır. Çünki şagirdin yaşadığı ərazi üzrə məktəbə getməsi təmin edilməlidir. Ərazi üzrə müvafiq məktəb seçilir və sistem yoxlanış aparır. Əgər bütün prosedur düzgündürsə, artıq növbəti proseslər başlayır.

Orta təhsil məktəbləri dedikdə bura liseylər də daxildir. Hansı ki, liseylərə qəbul da birbaşa Təhsil Nazirliyinə tabedir. Lakin bir qədər fərqli şərtlər var. Burada ərazi üzrə lisey seçilir, daha sonra bütün prosedurlar normal həyata keçirilir. Daha sonra isə liseylərə qəbul üçün müsahibə mərhələsi başlanır. Müsahibə mərhələsini müvəffəqiyyətlə başa vurmuş şagirdlər liseyə qəbul olurlar. Burada düşünürəm ki, çox doğru bir qərarlar verilib. Çünki liseylərin proqramları bir qədər fərqli olur. Eyni zamanda liseylərdə istedadlı şagidlərin təhsil alması üçün liseyə qəbul zamanı müsahibə mərhələsinin daxil edilməsi olduqca düzgün bir qərardır.




Valideynlər əlbəttə ki, qəbul üçün ayrılmış zamanı izləməlidirlər. Bir çox hallarda bizə müraciətlər olunur ki, valideynlər bu zamanı itiriblər. Bir çox hallarda isə valideynlər sistemdə baş verən donmalarla bağlı müraciət edirlər. Bu isə çox normaldır. Çünki həddindən artıq müraciətlər olduğu üçün sistemdə də donmalar baş verir. Lakin bu zaman narahatçılığa heç bir əsas yoxdur. Bütün hallarda Azərbaycanda orta ümumi təhsil icbaridir. Hər bir şagirdin təhsil alması təmin olunmalıdır. Bu şagirdin hüququdur və Təhsil Nazirliyi bunu təmin etməlidir. Buna görə də nazirlik bəzən bu müddəti artırır. Şagirdin təhsil almasını təmin etmək dövlətin, valideynin borcu, Təhsil Nazirliyinin isə vəzifəsidir. Hazırda da proses davam edir. Hər kəs portal üzərindən müraciətlərini davam etdirə bilərlər.

Birinci sinifə qəbul prosesi www.məktəbəqəbul.az elektron protalı üzərindən aparılır. Bu proses elektron qeydiyyatla 14 sentyabr 2022-ci ilə qədər davam edəcək və 14 sentyabrda proses başa çatacaq. Bu proses artıq 4 maydan başlayıb. Hər hansısa bir sual yaranarsa, nazirliyin elektron resurslarında sual-cavab faylı vasitəsilə sualları da əlavə etmək mümkündür. Eyni zamanda qaynar xətlər də hər zaman aktivdir”.

***Səbinə Hüseynli***

# “Onlar qarajdakı Ferrari kimidirlər”

***“Liverpul"un baş məşqçisi Yurgen Klopp İngiltərə Premyer Liqasının 37-ci turunda "Sauthempton"a qalib gəldikləri (2:1) matçı şərh edib. Alman mütəxəssis görüşdən sonra keçirilən mətbuat konfransında şans verdiyi əsas heyət üzvü olmayan futbolçuları haqda danışıb.***

O, bu futbolçularını Ferrariyə bənzədib: ”Oyundan həqiqətən məmnunam. Bu uşaqlar...! Onlar qarajdakı Ferrari kimidirlər. Mənim heç vaxt belə komandam olmayıb. Bu gün xüsusi bir matç idi. Lazım olanı futbolçuların sayəsində etdik. Komandam bununla fəxr etməlidir. Oyundan həqiqətən məmnunam. Bu uşaqlar...! Onlar qarajdakı Ferrari kimidirlər. Mənim heç vaxt belə komandam olmayıb. Bu gün xüsusi bir matç idi. Lazım olanı futbolçuların sayəsində etdik. Komandam bununla fəxr etməlidir”.



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**